# Azərbaycan iqtisadiyyatı - 2009

## Məlumatlandırıcı və analitik bülleten



Bakı, may 2010

# Azərbaycan iqtisadiyyatı - 2009

*Naşir: İqtisadi Tədqiqatlar Mərkəzi*
*Layihə rəhbəri: Qubad İbadoğlu*
*Nəşrə məsul şəxs: Rasim Hüseynov*
*İcmalın redaktoru: Qalib Toğrul*
*Tərtibatçı: Mahir Allahverdiyev*

İlk sayı dərc olunan “Azərbaycan iqtisadiyyatı - 2009” məlumat və analitik icmalında ötən il ölkə iqtisadiyyatında baş vermiş keyfiyyət və kəmiyyət dəyişiklikləri, inkişaf meylləri təhlil edilib. İcmal Azərbaycan və ingilis dillərində çap olunur.

Rəsmi statistik məlumat və İTM-in alternativ hesablamaları nəşrin əsas mənbələrini təşkil edir.

İcmal dörd bölmədən ibarətdir. Birinci bölmədə əsas makroiqtisadi göstəricilərin (ümumi daxili məhsul, investisiyalar, xarici ticarət), ikinci bölmədə isə ötən ilin dövlət büdcəsinin icrasi vəziyyətinin, Mərkəzi Bankın pul siyasətinin, habelə bank sektorunun, qiymətli kağızlar və sığorta bazarının, məzənnə siyasətinin təhlili verilib. Üçüncü bölmədə kənd təsərrüfatı və sənaye sektorunun inkişaf meylləri və problemlərinə ətraflı nəzər salınıb. Nəhayət, dördüncü bölmədə 2010-cu ilin dövlət büdcəsinin gəlir və xərclərinin və inflyasiyanın proqnoz göstəricilərindən geniş bəhs olunub.

İcmal geniş oxucu kütləsi üçün nəzərdə tutulub. Hökumət qurumları, biznes sektoru, elmi-tədqiqat institutları və mərkəzləri, beynəlxalq və ictimai təşkilatlar, həmçinin səfirliklər, universitetlərin müəllim heyəti, tələbələr və iqtisadiyyatla maraqlananlar icmaldan faydalana bilərlər.

İcmal İqtisadi Məsələlər üzrə İsveçrə Dövlət Katibliyinin dəstəyi ilə “Alternativ inflyasiya səviyyəsinin hesablanması və modellərin inkişafı” layihəsi çərçivəsində İTM tərəfindən hazırlanıb. İcmaldakı materiallara görə məsuliyyəti müəlliflər daşıyır. İcmal İqtisadi Məsələlər üzrə İsveçrə Dövlət Katibliyinin və İsveçrə hökumətinin mövqeyini əks etdirmir.

Schweizerische Eidgenossenschaft
Confédération suisse
Confederazione Svizzera
Confederaziun svizra

Swiss Confederation

Federal Department of Economic Affairs FDEA
State Secretariat for Economic Affairs SECO

İqtisadi Tədqiqatlar Mərkəzi

***Azərbaycan iqtisadiyyatı – 2009***
*Ünvan: C.Cabbarlı küç. 44, Kaspian Plaza 3, IX mərtəbə, AZ 1065,*
*Tel: + 994 12 437 32 30; Fax: + 994 12 437 32 40*
*www.erc-az.org*
*erc-az@azeurotel.com*

*“Azərbaycan iqtisadiyyatı - 2009” icmalı İqtisadi Tədqiqatlar Mərkəzi tərəfindən capa hazırlanıb, 2010-cu ildən ildə 4 dəfə nəşri planlaşdırılır.*

***© Müəllif hüququ İqtisadi Tədqiqatlar Mərkəzinə məxsusdur.***

# MÜNDƏRICAT

**Ön söz** ........................................ **6**

**1. Makroiqtisadi göstəricilər** ........................................ **9**
1.1 ÜDM istehsalı ........................................ 10
1.2 İnvestisiyalar ........................................ 13
1.3 İnflyasiya ........................................ 16
1.4 Xarici ticarət ........................................ 19

**2. Maliyyə bölməsi** ........................................ **21**
2.1 İcmal büdcə ........................................ 22
2.2 Monetar siyasət ........................................ 25
2.3 Bank bölməsi ........................................ 27
2.4 Məzənnə siyasəti ........................................ 29
2.5 Sığorta bazarı ........................................ 30
2.6 Qiymətli kağızlar bazarı ........................................ 31

**3. İqtisadiyyatın sahə strukturu** ........................................ **32**
3.1. Sənaye ........................................ 33
3.2. Aqrar siyasət ........................................ 37

**4. Proqnozlar** ........................................ **40**
4.1. 2010-cu ilin büdcəsi ........................................ 41
4.2. 2010-cu ilin inflyasiyası ........................................ 45

# CƏDVƏLLƏR VƏ DIAQRAMLAR

**Cədvəl 1.** 2009-cu ildə neft və qeyri-neft ÜDM-nin artım dinamikası ........11
**Cədvəl 2**. Son üç ilin əsas makroiqtisadi göstəriciləri ........12
**Cədvəl 3.** 1995-2009-cu illərdə əsas kapitala yönəldilmiş investisiyalar ........13
**Cədvəl 4.** Əsas kapitala yönəldilmiş investisiyaların maliyyə mənbələri üzrə strukturu ........14
**Cədvəl 5.** Əsas kapitala yönəldilmiş investisiyaların sahələr üzrə strukturu ........14
**Cədvəl 6.** İstehlak qiymətləri indeksi ........16
**Cədvəl 7.** Qiymət və tariflərin məcmu və qruplar üzrə indeksləri ........17
**Cədvəl 8.** İstehlak Qiymətləri İndeksinin dəyişməsi ........18
**Cədvəl 9.** MDB və digər ölkələrlə idxal - ixrac əməliyyatlarinin dinamikası ........19
**Cədvəl 10.** Azərbaycanda neft və qaz hasilatı ........33
**Cədvəl 11.** Əsas sənaye məhsullarının istehsalı və dinamikası ........34-35
**Cədvəl 12.** Sənayedə stehsalçı qiymətləri indeksi ........36
**Cədvəl 13.** Azərbaycanın torpaq ehtiyatları ........39
**Cədvəl 14.** Dövlət büdcəsinin gəlirləri və xərcləri ........41
**Cədvəl 15.** 2010-cu il dövlət büdcəsi gəlirlərinin əsas mənbələri ........42
**Cədvəl 16.** 2010-cu il dövlət büdcəsi gəlirlərinin strukturu ........43
**Cədvəl 17.** 2010-cu il dövlət büdcəsi xərclərinin bölmələr üzrə xüsusi çəkisi ........45

**Diaqram 1.** ÜDM-in real və nominal artım dunamikası (illər üzrə) ........10
**Diaqram 2.** 2009-cu ildə neft və qeyri-neft ÜDM-nin artım dinamikası (faizlə) ........11
**Diaqram 3.** 2009-cu ilin yanvar-dekabr aylarında ÜDM-in strukturu ........11
**Diaqram 4.** Əsas kapitala qoyulmuş investisiyaların mənbələri ........13
**Diaqram 5.** Neft və qeyri-neft sahələri üzrə investisiya bölgüsü ........13
**Diaqram 6.** 2009-cu ildə əsas kapitala yönəldilmiş investisiyanın xarici ölkələr və beynəlxalq təşkilatlar üzrə strukturu (%) ........15
**Diaqram 7.** 2009-cu ildə əsas kapitala yönəldilmiş idaxili və xarici investisiyalar (milyon manat) ........15
**Diaqram 8.** 2009-cu ildə aylıq İQİ üzrə DSK və İTM-in məlumatlarının müqayisəsi ........17
**Diaqram 9.** İxracın coğrafiyası ........19
**Diaqram 10.** İxracın strukturu ........19
**Diaqram 11.** İdxalın coğrafiyası ........20
**Diaqram 12.** İdxalın strukturu ........20
**Diaqram 13.** Büdcə gəlirləri və xərcləri ........22
**Diaqram 14.** Qeyri-neft defisiti və qeyri-neft ÜDM-i ........22
**Diaqram 15.** 2009-cu ilin büdcə gəlirlərinin strukturu ........23
**Diaqram 16.** Dövlət Neft Fondundan büdcəyə transfertlər ........23
**Diaqram 17.** Büdcə xərclərinin strukturu ........24
**Diaqram 18.** 2009-cu ildə pul bazasının istiqaməti ........25
**Diaqram 19.** 2001-ci ildən 2009-cu ilə kimi pul bazasının istiqaməti ........25
**Diaqram 20.** M2 və M3 pul aqreqatlarının dəyişməsi ........26
**Diaqram 21.** 2009-cu ildə kreditlərin sahələr üzrə strukturu ........27
**Diaqram 22.** Kreditlərin faiz dərəcələrinin dəyişməsi ........27
**Diaqram 23.** 2009-cu ildə kreditlərin dinamikası ........27
**Diaqram 24.** Kreditlərin valyutalar üzrə strukturu ........27
**Diaqram 25.** Kredit-depozit nisbəti ........28
**Diaqram 26.** Kredit-M3 nisbəti ........28
**Diaqram 27.** M3-qeyri-neft ÜDM-i nisbəti ........28
**Diaqram 28.** Nominal effektiv məzənnə (Dekabr 2000 = 100) ........28
**Diaqram 29.** Real effektiv məzənnə (Dekabr 2000 = 100) ........29
**Diaqram 30.** Sığorta tələbinin strukturu ........30

**Diaqram 31.** 2009-cu ildə sığorta bazarı....30
**Diaqram 32.** 2009-cu ildə sığorta bazarı....30
**Diaqram 33.** İlkin yerləşdirmə və təkrar bazar göstəriciləri. 2008-2009....31
**Diaqram 34.** 2008-ci ildə qiymətli kağızların həcmi....31
**Diaqram 35.** 2009-cu ildə qiymətli kağızların həcmi....31
**Diaqram 36.** İqtisadi rayonlar üzrə sənaye məhsulunun istehsalı (manatla)....33
**Diaqram 37.** 2009-ci ildə sənaye sahələri üzrə istehsalın dinamikası (2008-ci illə müqayisədə, %-lə)....33
**Diaqram 38.** Kənd təsərrüfatı istehsalının strukturu (mln.AZN)....37
**Diaqram 39.** 2008-ci il əkinçilik məhsullarının istehsalı (1 000 ton)....38
**Diaqram 40.** Məhsuldarlıq (1000 s/ha)....38
**Diaqram 41.** İqtisadiyyata sektorlar üzrə qoyulan birbaşa kapital (milyon manatla)....39
**Diaqram 42.** Dövlət büdcəsi....41
**Diaqram 43.** 2010-cu il dövlət büdcəsi xərclərinin bölmələr üzrə xüsusi çəkisi....44
**Diaqram 44.** 2010-cu il dövlət büdcəsi xərclərinin strukturu....45

# Ön söz

2008-ci ildə dünyanın əsas maliyyə mərkəzlərində başlayan böhran 2009-cu ildə dünya iqtisadiyyatını bürüyərək istisnasız bütün ölkələrə öz mənfi təsirini göstərdi. Təzahürləri hələ 2008-ci ilin ikinci yarısından Azərbaycan iqtisadiyyatında, əsasən də maliyyə sektorunda müsahidə olunan qlobal maliyyə və iqtisadi böhran, 2009-cu ildə ölkə iqtisadiyyatının digər sektorlarına da nüfuz etdi. Əvvəlki 3 ildə müşahidə edilmiş orta illik 22%-lik iqtisadi artım sürəti 2009 – cu ildə 9,3%-ə endi. İlk baxışdan bu artım dünyada tüğyan edən böhran şəraitində nəinki regional, hətta qlobal baxımdan kifayət qədər yuksək göstəricidir. Ancaq Azərbaycan hələ də xammal ölkəsi olaraq qalır və iqtisadiyyatdakı bu artım ölkə iqtisadiyyatının real vəziyyətini o qədər də adekvat əks etdirmir. Ötən 2009-cu il ölkə iqtisadiyyatının əsas ixrac məhsulundan - neftdən, daha doğrusu, onun qiymətindən asılılığını bir daha qabarıq şəkildə göstərdi. Ölkənin Ümumi Daxili Məhsulunun (ÜDM) üçdə iki hissəsi ixrac edilir və milli iqtisadiyyatın artımının yarıdan çoxu xarici tələb amilləri hesabına formalaşır. Bu baximdan ölkədə istehsal olunan neftin həcmi və onun dünya bazar qiymətlərinin dinamikası milli iqtisadiyyat üçün çox önəmlidir.

ÜDM-in real artımının 9,3% səviyyəsində qərarlaşmasında neft sektorunda formalaşan ÜDM-in 14,3%-lik və həcmcə ondan kiçik olan qeyri–neft ÜDM-nin 3,2%-lik artımı səbəb oldu. Qeyd edək ki, ÜDM-in real artımı istehsalın fiziki artım göstəricisidir və onun dinamikası sözsüz ki, ölkə iqtsadiyyatının aktivliyini əks etdirən göstərici kimi qəbul edilir. Ancaq iqtisadiyyatında xammal konponenti üstünluk təşkil edən ölkələr üçün fiziki həcmlərin artımını iqtsadiyyatın aktivliyi kimi səciyyələndirmək tam da doğru olmazdı. Çünki həmin xammalın qiyməti xarici faktorlarla, xarici tələblə müəyyənləşir və qiymətlər düşdükdə tamam başqa mənzərə açılır. Bu isə ondan ibarətdir ki, Azərbaycanda UDM-in real artımı fonunda ölkənin müasir tarixində ilk dəfə olaraq nominal ÜDM-in azalması qeydə alındı, deflyatorun səviyyəsi 2008-ci ildəki 127,8%-dən, 78,8%-ə endi. Yəni daha çox məhsul və xidmətlər istehsal olundu, ancaq onun müqabilində daha az vəsait əldə edildi. Daha ümuмiləşdirici göstərici olan - adambaşına duşən ÜDM, 2008-ci ildəki 4604 manatdan ($5603), 2009-cu ildə 3917 manata ($4874) qədər azaldi. Azərbaycanda ÜDM-in nominal həcminin azalması neftin qiymətinin düşməsi və qeyri-neft sektorunun zəif inkişaf sürəti ilə səciyyələnir.

2009-cu ildə Azərbaycanda faktiki bazar qiymətlərilə 34,6 mlrd. manatliq ÜDM istehsal edilib. Əvvəlki, 2008-ci ildə isə ölkədə 40,1 mlrd. manatlıq ÜDM əldə edilmişdi. Beləliklə, əgər maliyyə-iqtisadi böhran baş verməsəydi və 2009-cu ildə ortalama qiymətlər 2008-ci il səviyyəsində qalsaydi, onda ötən il nominal ÜDM-in həcmi 43,9 mlrd. manat təşkil edərdi. 2009-cu ildə nominal ÜDM-in baza və faktiki qiymətləri arasındakı fərq (43,9 mlrd. manat – 34,6 mlrd. manat) 9,3 mlrd. manatdır ($11,6 mlrd.). Bu isə maliyyə-iqtisadi böhran nəticəsində Azərbaycanın əldən çıxartdığı, qazana bilmədiyi məbləğdir, dolayısı ilə itkisidir. Həmin bu itkilər özünü Dövlət Neft Fondunun və dövlət büdcəsinin planlaşdırılan gəlirlərinin azalmasinda, tikinti, metallurgiya, kimya kompleksi, alüminium sənayesi və biznesin digər sahələrinin əldə edə biləcəyi qazanclarda göstərdi.

Neftin hər barelinin qiymətinin $10 düşməsi Azərbaycanın tədiyyə balansı üçün $2 milyard itki deməkdir. Nəzərə alsaq ki, neftin orta qiyməti 2009-cu ildə 2008-ci ildəki $96,5-dan, $62-a düşüb, onda tədiyyə balansının profisiti hökumətin gözləntilərindən $5 mlrd. az olaraq $11 mlrd. səviyyəsinə enə bilər, ilkin gözləntilər isə təxminən $16 mlrd. idi. ÜDM-in yarısını formalaşdıran sənaye sektorunda ötən il real artım 8,6% səviyyəsində olmuşdu. Əsas sənaye məhsulları olan xam neftin həcmi 13.5% artaraq 50.4 milyon tona, təbii qaz hasilatı isə 23.7 (+3,9%) milyard kub metrə çatmışdı. Ötən il ümumilikdə sənayenin əsas bölməsi olan mədənçıxarmada istehsalın həcmi əvvəki ili 12.5% üstələyib. Sənayedəki artım məhz mədənçıxarmadakı artım hesabına formalaşmışdı, çünki sənayenin digər iki bölməsində - emal sənayesi və elektrik enerjisi, qaz və suyun istehsalı və bölüşdürülməsi bölmələrində istehsalın müvafiq olaraq 7,7% və 10,8% azalması müşahidə edilib. Beləliklə, sənaye sahəsində formalaşan ÜDM-in 12,8% -lik artımının səbəbkarı mədənçıxarma sənayesindəki artım oldu. Maddi istehsalın digər sahələrində - kənd təsərrüfatında ÜDM-in həcmi 3,5% artıb, tikintidə isə 8,2%-lik tənəzzül qeydə alınıb. Sonuncuda qeydə alınan azalma kənd təsərrüfatındakı artımı üstələyərək nəticədə maddi istehsaldakı 10%-lik artımın mədənçıxarma sənayesində, daha doğrusu, neft-qaz hasilatında olan artımin hesabına olduğunu üzə çıxartdı.

Beləliklə də, qeyri–neft ÜDM-nin 3,2%-lik artımına qeyri–neft maddi istehsal sahələri yox, xidmət sahələrində qeydə alınmış artımlar səbəb oldu, məsələn, rabitə xidmətlərində 13,1%-lik artım,

nəqliyyatdakı 9,3%, ticarətdəki 8,9%, sosial və digər xidmətlər sahəsindəki 7,7%-lik artımlar.

Nominal ÜDM-in neqativ dinamikası fonunda ötən il Azərbaycan əhalisinin pul gəlirləri 2008-ci ildəkilə müqayisədə 8,0% artaraq 22,4 mlrd. manata çatdı.

Ümumiyyətlə, daha çox hallarda nominal ÜDM-in azalması əsasən əhalinin gəlirlərinin azalması ilə yanaşı, məşğulluğun da azalmasına səbəb olur (qeyd edək ki, sənayedə məşğulluq təxminən 10% azaldı). Adambaşına düşən gəlirlər 6,7% artaraq, 2 537 manatadək yüksəldi. Əhalinin gəlirləri istehsal olunmuş faktiki ÜDM-də 15 faiz bəndi artaraq 2008-ci ildəki 50,0% -dən 64,8%-ə qədər yüksəldi. Bu isə özlüyündə ötən il əsas fondlara, dövriyyə vəsaitlərinə, və ümumilikdə məcmu yığıma yönəldilən vəsaitlərin azalmasından, istehlakla yığım arasında son vaxtlar yaranmış paritetin pozulmasdan xəbər verir. Əhali gəlirlərinin əsas mənbəyi olan əmək haqları da ötən il orta hesabla artdı. Orta aylıq əmək haqqının 8,6% artaraq 298 manata çatması istehlak bazarlarında müvafiq qiymət artımlarına səbəb olmadı. Əhali əlindəki vasaitləri daha qənaətlə xəclməyə üstünlük verdi. İnflyasiya və deflyasiya prosesləri ötən ili yarıya böldülər. İlin birinci yarısı deflyasiya, ikinci yarısı isə inflyasiya prosesləri şəraitində keçdi və aylıq istehlak qiymətləri indeksi 2,1 faiz bəndi hüdudlarında dəyişərək ( - 0,8%, + 1,3% arasında tərəddüd etdi) illik +1,5% təşkil etdi. Əgər əhalinin gəlirlərinin ÜDM-dəki xüsusi çəksinin artımı istehlak bazarlarına ciddi təzyiq göstərmədisə, ÜDM-in yığıma gedən hissəsi, investisiya qoyuluşları kifayət qədər azaldı. Rəsmi məlumatlara əsasən, əsas kapitala yönəldilən investisiyaların həcmi ötən il 18,7% azalaraq (qeyd edək ki, 2008-ci ildə artım 34,4% idi) 7 mlrd. 359 mln. manat təşkil etdi. Milli iqtisadiyyat xarici investisiyaların 1/3-ni itirməklə yanaşı, daxili investisiyaların həcmi də 14,2% azaldı. Daxili investisiyaların əsas mənbələrindən olan dövlət büdcəsinin xərcləri 28% azalaraq 2 mlrd. 678 mln. manat və ya ümumi investisiyaların 36,4%-ni təşkil etdi. Büdcə investisiyalarının azalmasının səbəbi daxilolmalar üzrə bütün ilboyu büdcənin icra olunmaması idi.

2009-cu ildə dövlət büdcəsinin gəlir və xərcləri 2008-ci ilin göstəricilərindən aşağı səviyyədə icra olundu. İlkin məlumatlara görə, ötən il dövlət büdcəsinə 10 mlrd. 325,9 mln. manat yığmaq mümkün olub. Bu isə 2008-ci ildəkindən 4,1% və ya 436,8 mln. manat azdır. Büdcə xərcləri isə ötən il 2008-ci ildəkindən 2,5% və ya 271,2 mln. manat az olaraq, 10 503.9 mln. manat səviyyəsində icra olundu. Xüsusi qeyd etmək lazımdır ki, 2009-cu il büdcəsinin 2008-cu il büdcəsindən zəif icrası Neft Fondundan dövlət büdcəsinə transfertlərin 2008-ci ildəkinə nisbətən 1 mlrd. 115 mln. manat artırılması, yəni 3 mlrd. 800 mln. manatdan 4 mlrd. 915 mln. manata çatdirılması fonunda baş verib. Ümumilikdə 2009-cu ildə dövlət büdcəsinə neft mədaxili 6 mlrd. 897 mln. manat və ya bütün büdcə daxilolmalarının 66,8%-ni təşkil edib, o cümlədən 47,6%-i Neft Fondundan transfertlər. Müqayisə üçün qeyd edək ki, son göstəricilər 2008-ci ildə müvafiq olaraq 67,8% və 35,3% səviyyəsində qərarlaşmışdılar. Neftə qlobal tələbin azalması və bunun nəticəsində onun qiymətinin düşməsi Azərbaycan büdcəsinin Neft Fondunun transfertlərdən kənar neft gəlirlərinin xüsusi çəkisini 2008–ci ildəki 32,5%-dən ötən il 19,2%-ə qədər endirdi.

Maraqlıdır ki, böhran ilinə baxmayaraq Dövlət Neft Şirkəti büdcəyə, daha "əlverişli" 2008-ci ildəkindən ümumilikdə 117,1 mln. manat çox, yəni 1 mlrd. 468,9 mln manat vəsait köçürdü. Görünür, burada Dövlət başçısının 29 dekabr 2009-cu il Fərmanı ilə istehlak edilmiş təbii qaza görə əhalinin 1 oktyabr 2009-cu il tarixinə Dövlət Neft Şirkətinin "Azəriqaz" İstehsalat Birliyinə yaranmış 327,0 milyon manat məbləğində borclarının dövlət büdcəsi hesabına silinməsi əhəmiyyətli rol oynadı. Və Şirkət ilin sonuncu ayında əvvəlki 11 ayda büdcəyə ödədiyi tədiyyələrin yarıdan çoxu (56,9%) həcmində - 532,6 mln manat ödəniş etdi. Bununla belə, Şirkət mənfəət vergisi üzrə 1 mlrd 450 mln manat proqnoza qarşı 1 mlrd. 272,6 mln. manat ödəmiş oldu. Mənfəət vergisi uzrə Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətinin ödənişləri isə daha zəif olub, 1 mlrd. 230 mln. manat prognoza qarşı - cəmi 513,2 mln. manat və ya 2008-ci ildəkindən 1 mlrd. 636,2 mln. manat (76,1%) az ödədi.

Xüsusilə qeyd etmək lazimdir ki, 2009-cu ildə ilk dəfə olaraq Neft Fondudan büdcə transferləri Vergilər Nazirliyi xətti ilə daxilolmalardan çox oldu.

Büdcə daxilolmalarının 39,8%-i və ya 4 mlrd. 113,5 mln. manatı Vergilər Nazirliyi, 10,8%-i və ya 1 mlrd. 112,7 mln. manatı Dövlət Gömrük Komitəsi tərəfindən təmin edilib, 47,6%-i və ya 4 mlrd. 915,0 mln. manatı Dövlət Neft Fondundan, 1,8%-i və ya 184,7 mln. manatı isə sair mənbələrdən daxil olub.

Ümumilikdə 2009-cu il büdcə prognozlarının gəlir (12 mlrd. 177 mln. manat) və xərclər ( 12 mlrd. 355 mln. manat) üzrə müvafiq olaraq 15,2% və 14,5% kəsirlə icra olunması nəticəsində bir sıra dövlət proqramlarının qeyri-müəyyən vaxta ertələnməsinə, büdcə təşkilatı işçilərinin əmək haqlarını dondurulmasına gətirib çixartdı.

Ötən il Azərbaycanın xarici ticarət dövriyyəsi də ürəkaçan olmadı. Rəsmi statistikaya görə, xarici ticarət dövriyyəsinin 2,5 dəfədən artıq azalması qeydə alındı. Əgər 2008-ci ildə Azərbaycanın ixrac-idxal əməliy-

yatları $54 mlrd. 920 mln. təşkil edirdisə, ötən il bu göstərici $20 mlrd. 818 mln.-a qədər azaldı, müsbət saldo $8 mlrd. 579 mln. təşkil etdi. Müqayisə üçün qeyd edək ki, 2008-ci ildə bu göstərici 4,7 dəfə çox olub və $40 mlrd. 593 mln. təşkil edib. Acınacaqlı vəziyyət ölkənin qeyri- neft ixracında müşahidə olundu. Qlobal tələbatın azalması və bunun nəticəsində qiymətlərin azalması keyfiyyətcə nisbətən aşağı olan Azərbaycan məhsullarının rəqabətliliyini daha da zəiflətdi. Alüminium və ondan hazırlanan məmulatların ixracı 10 dəfə, kimya sənayesi məhsullarının ixracı 3 dəfə, qara metallar və onlardan hazırlanan məmulatların ixracı 2 dəfə azaldı, hətta meyvə-tərəvəzin də ixracında 10%-lik azalma qeydə alındı.

Adambaşına düşən qeyri-neft ixracatı 2008-ci ildəki $167-dan 2009-cu ildə $124-a enib (2009-cu ildə Ermənistanda bu rəqəm $218 olub). Bəzi beynəlxalq maliyyə institutlarının ekspertlərinin fikrincə, Azərbaycan adambaşına qeyri-neft ixracatına görə, bir sıra kasıb Afrika ölkələrindən də geri qalır və qeyri-neft iqtisadiyyatının inkişafı sahəsində həyata keçirilən siyasət onların fikrincə səmərəsizdir.

Qlobal maliyyə-pul bazarlarının sıxıntısı şəraitində bankların, milli şirkətlərin xaricdən borclanması, onların yenidən maliyyələşməsi imkanları nəinki məhdudlaşdı, hətta bir sıra borcların vaxtından əvvəl qaytarılması tələb olundu. Belə şəraitdə Azərbaycan bankları il ərzində $1,2 mlrd. borc qaytardılar. Bundan başqa xaricdə yaşayan soydaşlarımızın regionların əhalisi üçün sosial baxımdan xüsusi əhəmiyyət kəsb edən pul transferləri də xeyli azaldı. Nəticədə milli iqtisadiyyat bəzi qonşu ölkələrdə olduğu kimi, manatın devalvasiyası təzyiqləri ilə qarşılaşdı. Bu təzyiqlər özünü ötən ilin birinci rübündə - əhalinin devalvasiya gözləntilərinin daha çox artdığı (Rusiya və Ermənistandaki devalvasiyadan sonra) və bununla da əlaqədar pullarının xeyli hissəsini xarici valyutalara çevirdiyi şəraitdə - qabarıq şəkildə göstərdi. Milli valyutanın stabilliyini qorumaq üçün Mərkəzi Bank xeyli resurslar sərf etməli oldu və bu da sonda demək olar ki, özünü doğrultdu. Bütövlükdə, il ərzində Mərkəzi Bankın xalis emissiyası 1,8 mlrd. manat təşkil etdi.

Daxili və xarici maliyyə mənbələrinin azalması şəraitində Mərkəzi Bank pul siyasətini ciddi şəkildə yumşaltmalı oldu, uçot dərəcəsi 15%-dən 2%-dək azaldıldı

2009-cu il ərzində qanunvericilikdə bir sıra əlavə tədbirlər görüldü:

- sığortalanan əmanətlərin məbləği 5 dəfə artırıldı – 6 min manatdan 30 min manata çatdırıldı.

- bankların xarici borclarının qaytarılmasını təmin etmək üçün onlara zəruri yardım göstərildi.

- qanunvericiliklə banklara və sığorta təşkilatlarına kapitallaşdırma məqsədi ilə vergi güzəştləri tətbiq olundu (Nizamnamə kapitalına yönəldilən mənfəət vergidən azad edildi), mümkün itkilərlə bağlı banklar maliyyə ehtiyatlanmasını artırdı. Bütün bu tədbirlər 2009-cu ilin birinci rübündə bank sektorunda müşahidə edilən gərginliyi aradan qaldırdı, onlarin likvidliyini sabitləşdirdi. Azərbaycan bank sektorunun beynəlxalq maliyyə bazarlarına məhdud səviyyədə qatildığı və Mərkəzi Bankın irimiqyaslı antiböhran tədbirləri və birbaşa maliyyə yardımları bank sistemini iflasdan qurtarsa da, sığorta, qiymətli kağızlar və lizinq bazarı tənəzzülə uğradı və bu proses indi də davam etməkdədir.

# MAKROİQTİSADİ GÖSTƏRİCİLƏR

# Ümumi Daxili Məhsul istehsalı

2009-cu ildə əvvəlki 3 ildə Azərbaycanda müşahidə edilmiş orta illik 22%-lik real iqtisadi artım sürəti 9,3%-ə endi. Ölkənin müasir tarixində ilk dəfə iqtisadiyyatın real (fiziki) artımı qarşılığında ÜDM-in nominal həcminin 21,2%-lik azalması qeydə alındı. Bunun əksi olan proseslər ötən əsrin 90-cı illərinin əvvəllərində, ölkədə yüksək inflyasiya və hiperinflyasiyanın tüğyan etdiyi dövrlərdə müşahidə olunmuşdu. Hər iki proses istənilən ölkənin iqtisadiyyatı üçün neqativ tendensiya göstəricisi olmaqla onun makroiqtisadi stabilliyinə xərər gətirəcək amildir. Bu baxımdan




**Diaqram 1.** ÜDM-in real və nominal artım dunamikası (illər üzrə, manatla və faizlə)




**Diaqram 2.** 2009-cu ildə neft və qeyri-neft ÜDM-nin artım dinamikası (aylar üzrə, faizlə)

| | I | II | III | IV | V | VI | VII | VIII | IX | X | XI | XII |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| **ÜDM artımı (%)** | -2.6 | 3.4 | 4.1 | 4.3 | 4.4 | 3.6 | 2.7 | 5.0 | 6.1 | 8.3 | 9.0 | 9.3 |
| **Qeyri-neft ÜDM-nin artımı (%)** | 2.8 | 13.9 | 13.7 | 8.4 | 6.6 | 4.1 | 3.6 | 1.5 | 0.8 | 1.1 | 1.0 | 3.2 |
| **Neft ÜDM-nin artımı (%)** | -6.8 | -2.8 | -2.1 | 2.0 | 3.3 | 3.4 | 2.3 | 7.4 | 9.6 | 13.6 | 15.1 | 14.3 |

**Cədvəl 1.** 2009-cu ildə neft və qeyri-neft ÜDM-nin artım dinamikası (aylar üzrə, faizlə)

2009-cu ili ölkə iqtisadiyyatı üçün ağır illər sayılan ötən əsrin 90-cı illərinin əvvəlləri ilə müqayisə etmək olar. 2009-cu ildə, 2008-cu ildəki 40,1 mlrd. manatlıq ÜDM-ə qarşı, faktiki qiymətlərlə 34,6 mlrd. manat həcmində ÜDM istehsal olundu. ÜDM-in real artımının 9,3% səviyyəsində qərarlaşmasında neft sektorunda formalaşan ÜDM-in 14,3%-lik və həcmcə ondan kiçik olan qeyri-neft ÜDM-nin 3,2%-lik artımı səbəb oldu.




**Diaqram 3.** 2009-cu ilin yanvar-dekabr aylarında ÜDM-in strukturu

Adambaşına düşən ÜDM 2008-ci ildəki 4604 manatdan ($5603), 2009-cu ildə 3917 manata ($4874) qədər azaldı. ÜDM-in həcminin azalması dunya maliyyə-iqtisadi böhranı nəticəsində ölkənin əsas ixracatı olan neftin qiymətinin düşməsi və qeyri-neft sektorunun zəif inkişaf sürəti ilə bağlıdır.

2009-cu ildə Azərbaycan iqtisadiyyatının qeyri-neft sektorunda 15 mlrd. 683 mln. manatlıq, neft sektorunda isə 16 mlrd. 257 mln. manatlıq ÜDM istehsal edildi. Məhsula və idxala xalis vergilər isə ÜDM-də 2 mlrd. 639 mln. manat təşkil etdi.

İstehsal edilmiş ÜDM-in 64,1%-i iqtisadiyyatın istehsal, 28,3%-i xidmət sahələrinin payına düşüb, məhsula və idxala görə ödənilmiş xalis vergilər isə ÜDM-in 7,6%-ni təşkil edib.

ÜDM-in 50,0%-i sənayedə, 6,7%-i kənd təsərrüfatı, ovçuluq və meşə təsərrüfatında, 7,4%-i tikintidə, 6,6%-i nəqliyyat və anbar təsərrüfatında, 2,0%-i poçt və rabitədə, 7,0%-i topdan və pərakəndə ticarət avtomobillərinin, məişət məmulatlarının və şəxsi istifadə əşyalarının təmiri üzrə xidmətlər, 1,0%-i mehmanxana və restoran xidmətləri, 11,7%-i isə sosial və digər xidmətlər göstərən sahələrdə istehsal olunub.

Neftin dunya bazar qiymətlərinin aşağı düşməsi nəticəsində iqtisadiyyatın qeyri-neft sahələrində yaradılmış əlavə dəyərin ÜDM-də xüsusi çəkisi 2008-ci ildəkinə nisbətən 7,5 faiz bəndi artaraq 45,4% təşkil etdi, neft sektorunun payı isə 47% səviyyəsində qərarlaşdı.

Cədvəldən göründüyü kimi məhsul istehsalı sahələrindəki 10%-lik artım məhz sənayedəki 12,8%-lik artım hesabına formalaşıb, cünki UDM-də daha böyük xüsusi çəkiyə malik olan tikinti sektorunun tənəzzülü xüsusi çəkisi ondan kiçik olan kənd təsərrüfatındakı artimdan daha çox olub. Öz növbəsində, sənayedəki əlavə dəyərin artımı mədənçıxarma sənayesində müşahidə olunan artım hesabına, daha doğrusu neft hasilatının yüksəlməsi nəticəsində baş verib, çünki sənayenin digər iki sferasında ötən il tənəzzül qeydə alınıb (bax: Sənaye bölməsinə). Beləliklə kənd təsərrüfatındakı 3,5%-lik artıma

| | 2007 | 2008 | 2009 |
|---|---|---|---|
| ÜDM, mln. AZN<br>*Artım dinamikası, %-lə* | 28 360.5<br>*25.0* | 40 137.2<br>*10.8* | 34 578.7<br>*9.3* |
| Adambaşına düşən ÜDM, dollarla | 3 474 | 5 603 | 4 874.1 |
| Neft ÜDM-i, mln.AZN<br>*Artım dinamikası, %-lə* | 15 411.7<br>*36.8* | 22 251.3<br>*6.8* | 16 527.3<br>*14.3* |
| Qeyri-neft ÜDM-i, mln.AZN<br>*Artım dinamikası, %-lə* | 9 533.9<br>*11.4* | 15 197.2<br>*15.9* | 15 683.2<br>*3.2* |
| İnflyasiya, %<br>Aylıq, 12 aylıq (İllik)<br>orta illik | <br>19.6<br>16.7 | <br>15.4<br>20.8 | <br>0.6<br>1.5 |
| Əhalinin gəlirləri, artım dinamikası, %-lə | 40.3 | 37.8 | 8.0 |
| Orta aylıq əməkhaqqı, AZN<br>*Artım dinamikası, %-lə* | 214.0<br>*42.0* | 274.4<br>*24.2* | 298.0<br>*8.6* |

**Cədvəl 2**. Son üç ilin əsas makroiqtisadi göstəriciləri

baxmayaraq, ümumilikdə neftdənkənar məhsulların istehsalı sahəsində, UDM-in real artımının olmadığını görmək olar. İqtisadiyyatın qeyri-neft sektorundakı artımı isə əsasən böhrandan xeyli az zərər çəkmiş xidmət sahələrindəki - poçt və rabitədəki 13,1%-lik, nəqliyyatdakı 9,3%-lik, ticarətdəki 8,9%-lik, sosial və digər xidmətlər sahəsindəki 7,7%-lik artım hesabına formalaşıb.

# İnvestisiyalar

*Maliyyə-iqtisadi böhran nəticəsində yaşadığımız əsrin əvvəlindən əsas kapitala yönəldilmiş investisiyaların orta illik 34%-lik artımı 2009-cu ildə 18,7%-lik azalma ilə yadda qaldı. Qlobal tələbatın azalması fonunda ixrac mallarının və xüsusən xam neft və neft məhsulları qiymətinin aşağı düşməsilə və qlobal likvidlik çatışmazlığının Azərbaycanın maliyyə sektorunun xaricdən borclanması imkanlarını məhdudlaşdırması ilə qlobal böhran Azərbaycan iqtisadiyyatına öz təsirini yetərincə göstərdi.*

| İllər | 1995 | 1996 | 1997 | 1998 | 1999 | 2000 | 2001 | 2002 | 2003 | 2004 | 2005 | 2006 | 2007 | 2008 | 2009 |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Əsas kapitala yönəldilmiş investisiyalar | 82 | 212 | 139 | 123 | 98 | 103 | 121 | 184 | 174 | 135 | 117 | 115 | 124 | 132 | 81.3 |

**Cədvəl 3.** 1995-2009-cu illərdə əsas kapitala yönəldilmiş investisiyalar (əvvəlki ilə nisbətən faizlə)

Ümumilikdə qlobal ÜDM daralması ilə tamamlanmış 2009-cu ildə, Azərbaycan da 9,3 mlrd. manatlıq ÜDM daralmasına məruz qaldı. Nəticədə daxili investisiya qoyuluşları, o cümlədən müəssisə və təşkilatların gəlirlərinin azalması nəticəsində kapital qoyuluşları və bununla yanaşı büdcə daxilolmalarının aşağı düşməsi səbəbindən dövlət investisiya qoyuluşları azaldı. Digər tərəfdən, maliyyə resurslarına çıxış imkanlarının məhdudlaşması xarici investisiya axınlarını daraltdı. Milli iqtisadiyyat xarici investisiyaların 1/3-ni itirməklə yanaşı, daxili investisiyaların həcmi də 14,2% azaldı.

2009-cu ildə ölkənin iqtisadi və sosial sahələrinin inkişafı üçün bütün maliyyə mənbələrindən əsas kapitala 7 mlrd. 358,7 mln. manat investisiya yönəldilib. Dövlət mülkiyyətinə məxsus müəssisə və təşkilatlar inşaat işlərinə 4 mlrd. 433,9 mln. manat, qeyri-dövlət müəssisələri 2 mlrd. 924,8 mln. manat vəsait sərf ediblər. İstehsal təyinatlı obyektlərin inşasında 5 mlrd. 455,1 mln. manatlıq, qeyri-istehsal təyinatlı obyektlərin tikintisində 1 mlrd. 903,6 mln. manatlıq investisiyadan istifadə edilib.

Əsas kapitala yönəldilmiş vəsaitin 79,9%-ni daxili investisiyalar, 20,1%-ni isə xarici investisiyalar təşkil edib. Daxili investisiyaların isə 70,4%-i dövlət mülkiyyətinə məxsus müəssisə və təşkilatların, 29,6%-i qeyri-dövlət mülkiyyətinə məxsus müəssisələrin payına düşüb. 2009-cu ildə əsas kapitala yönəldilmiş ümumi investisiyanın 5374,1 mln. manatı və ya 73%-i qeyri-neft bölməsinin, 1984,6 mln. manatı və ya 27%-i neft bölməsinin payına düşüb.

2009-cu ildə büdcədən maliyyələşdirilməsi nəzərdə tutulmuş inşaat işlərini həyata keçirmək üçün dövlət büdcəsindən 4 mlrd. 718 mln. manat vəsaitin ayrılması planlaşdırılmışdı. Ancaq ilboyu büdcənin icra olunmaması bu mənbədən investisiyaların azalmasına gətirib çıxartdı və




**Diaqram 4.** Əsas kapitala qoyulmuş investisiyaların mənbələri




**Diaqram 5.** Neft və qeyri-neft sahələri üzrə investisiya bölgüsü

nəticədə nəzərdə tutulmuş məbləğin yalnız 53%-dən və ya 2 mlrd. 498 mln. manatından istifadə edildi.

Əsas kapitala yönəldilmiş sərmayənin ümumi həcmində müəssisə və təşkilatların vəsaitləri 3 mlrd. 521,9 mln. manat və ya ümumi investisiyaların 47,9%-i, bank kreditləri 384,7 mln. manat (5,2%-i), büdcə vəsaitləri (o cümlədən yerli büdcələrin vəsaitləri) 2 mlrd.

| | 2009-cu ildə, mln. manat | Əvvəlki ilə nisbətən, %-lə (müqayisəli qiymətlərlə) | Ümumi həcmdə xüsusi çəkisi, %-lə |
|---|---|---|---|
| **Cəmi** | **7 358.7** | **81.3** | **100.0** |
| o cümlədən: Müəssisə və təşkilatların vəsaitləri | 3 521.9 | 86.7 | 47.9 |
| Bank kreditləri | 384.7 | 110.5 | 5.2 |
| Büdcə vəsaitləri | 2 678.0 | 72.1 | 36.4 |
| Büdcədənkənar fondların vəsaitləri | 473.9 | 75.8 | 6.4 |
| Əhalinin şəxsi vəsaiti | 299.7 | 103.3 | 4.1 |
| Digər vəsaitlər | 0.5 | 10.1 | 0 |

**Cədvəl 4.** Əsas kapitala yönəldilmiş investisiyaların maliyyə mənbələri üzrə strukturu

678,0 mln. manat (36,4%-i), büdcədənkənar fondların vəsaitləri 473,9 mln. manat (6,4%-i), əhalinin şəxsi vəsaitləri 299,7 mln. manat (4,1%-i), digər vəsaitlər isə 0,5 mln. manat təşkil edib.

Maliyyə mənbələri üzrə əsas kapitala yönəldilmiş investisiyadan istifadə yuxarıdakı kimi olub (Cədvəl 4)

İl ərzində əsas kapitala yönəldilmiş bütün investisiyanın 40,9%-i sənaye sahələrinin inkişafına, 3,5-%-i kənd təsərrüfatına, 0,1%-i balıqçılığa, 0,4%-i tikintiyə, 2,9%-i ticarət və xidmətə, 0,7%-i mehmanxana və restoranlara, 23,8-%-i nəqliyyata, 1,9%-i rabitəyə, 0,2%-i maliyyə sektoruna, 10,9%-i daşınmaz əmlakla əlaqədar əməliyyatlara (ondan 8,8%-i mənzil tikintisinə), 7,1%-i dövlət idarəetməsinə, 1,5%-i təhsilə, 2,1%-i səhiyyəyə, 4,0%-i digər kommunal, sosial və şəxsi xidmətlərin göstərilməsi sahələrinə sərf edilib.

| Sahələrin adı | 2009-cu ildə, mln. manatla | 2009/2008, %-lə (müqayisəli qiymətlərlə) | Xüsusi çəkisi, %-lə |
|---|---|---|---|
| **CƏMİ** | **7 358.7** | **81.3** | **100.0** |
| **O cümlədən:** Dövlət bölməsi | 4 433.9 | 78.3 | 60.3 |
| Qeyri-dövlət bölməsi | 2924.8 | 86.4 | 39.7 |
| Kənd təsərrüfatı | 254.0 | 75.7 | 3.5 |
| Sənaye | 3 009.3 | 75.1 | 40.9 |
| **O cümlədən:** I. Mədənçıxarma sənayesi | 2 013.6 | 73.0 | 27.4 |
| II. Emal sənayesi | 338.9 | 89.2 | 4.6 |
| III. Elektrik enerjisi, qaz və suyun istehsalı və bölüşdürülməsi | 656.8 | 75.5 | 8.9 |
| Ticarət və şəxsi istifadə əşyalarının təmiri | 215.9 | 2.5 | 2.9 |
| Nəqliyyat | 1 749.6 | 93.3 | 23.8 |
| Rabitə | 142.2 | 88.4 | 1.9 |
| Daşınmaz əmlak əməliyyatları | 802.2 | 98.6 | 10.9 |
| **Ondan:** mənzil tikintisi | 644.8 | 97.3 | 8.8 |
| Dövlət idarəetməsi | 525.5 | 67.6 | 4.1 |
| Təhsil | 106.3 | 37.8 | 1.5 |
| Səhiyyə və sosial xidmətlər | 155.8 | 61.0 | 2.1 |
| Digər kommunal, sosial və şəxsi xidmətlərin göstərilməsi | 295.7 | 72.2 | 4.0 |

**Cədvəl 5.** Əsas kapitala yönəldilmiş investisiyaların sahələr üzrə strukturu

Əsas kapitala yönəldilmiş investisiyanın həcmi iqtisadiyyatın sahələri üzrə Cədvəl 5-dəki kimi xarakterizə olunur.

Əvvəlki illərdə olduğu kimi, 2009-cu ildə də Azərbaycan iqtisadiyyatına yatırılmış investisiyaların əsas hissəsi paytaxtın payına düşüb. Ötən il bütün maliyyə mənbələrindən Bakıda iqtisadiyyatın inkişafına 4 mlrd. 443 mln manat və ya ölkə iqtisadiyyatının müxtəlif sahələrinə yönəldilən bütün investisiyaların 60,3%-i qoyulub. Ötən il Azərbaycan iqtisadiyyatına investisiyalar 18,7% azaldığı halda, paytaxtda investisiya yatırımları daha çox, 25,4% azalıb. Bu isə əsasən, neft sektoruna qoyulan investisiyaların daralması ilə bağlıdır.




**Diaqram 6.** 2009-cu ildə əsas kapitala yönəldilmiş investisiyanın xarici ölkələr və beynəlxalq təşkilatlar üzrə strukturu (%)

Qalan investisiyalar ölkənin iqtisadi rayonları üzrə belə bölünüb:

- Abşeron iqtisadi rayonu – 2,3%;
- Gəncə-Qazax iqtisadi rayonu -4,6%;
- Quba-Xaçmaz – 4,1%;
- Aran – 5,4%;
- Naxçıvan – 5,6%.

İnvestisiyaların 13,3%-nin iqtisadi rayonlar üzrə bölğüsünü aparmaq hökumətə mumkün olmayıb, qalan 4,4% yatırımlar isə digər 5 iqtisadi rayonun payına düşüb.

2009-cu ildə Sumqayıt şəhərində 525 MVt gücündə Elektrik Stansiyası, Gədəbəy Qızıl-mis emalı və Hacıqabul Kərpic zavodları, Quba rayonunda modul tipli "Şahdağ" Elektrik stansiyası, Bakıda "Azadlıq prospekti" Metro stansiyası, Beynəlxalq Avtovağzal Kompleksi, Şərur rayonunda Asfalt-beton zavodu, Naxçıvan şəhərində və Şərur rayonunda meyvə-tərəvəz saxlamaq üçün soyuducu anbarlar, ölkənin müxtəlif bölgələrində 288,5 kilometr uzunluğunda fiber-optik magistral kabel xətti, bütün maliyyə mənbələri hesabına ümumi sahəsi 1363,3 min kvadrat metr olan yeni yaşayış evləri, 20 622 şagird yerlik ümumtəhsil məktəbi, Şəmkir, İsmayıllı və Şərur rayonlarında Olimpiya İdman kompleksləri istifadəyə verilib.

2009-cu ildə xarici mənbələrdən əsas kapitala yönəldilmiş investisiyanın həcmi son 8 ildə ən aşağı səviyyəyə düşərək 1 mlrd. 477,3 mln. manat təşkil edib. Əvvəlki ilə nisbətən Azərbaycan iqtisadiyyatı xarici investisiyaların 1/3-ni itirib. Bunu bir tərəfdən neft sektoruna yatırımların azalması ilə əlaqələndirmək olarsa, dıgər tərəfdən birbaşa qlobal maliyyə-iqtisadi böhranın təsiri kimi qiymətləndirmək mümkündür. :




**Diaqram 7.** 2009-cu ildə əsas kapitala yönəldilmiş daxili və xarici investisiyalar (milyon manat)

# İnflyasiya

Rəsmi məlumatlara görə, Azərbaycanda 2009-cu ilin ilk ayında deflyasiya qeydə alınıb. İstehlak Qiymətləri İndeksi (İQİ) yanvarda əvvəlki aya nisbətən -0.6%, fevralda -0.8%, martda -0.7%, apreldə və mayda -0.2%, iyunda isə -0.6% olub. İlin ikinci yarımilindən başlayaraq dekabr da daxil olmaqla inflyasiya prosesləri müşahidə olunub. İQİ iyulda 0.8%, avqustda 0.1%, sentyabrda və oktyabrda 0.4%, noyabrda 1.3%, dekabrda isə 0.8% səviyyəsində qeydə alınıb. İl ərzində İQİ 2.1 faiz bəndi (-0.8 və +1.3) aralığında tərəddüd edib. Ötən il deflyasiyanın və inflyasiyanın aşağı səviyyəsinin qeydə alınması ilk növbədə qlobal maliyyə böhranı nəticəsində istehlak bazarına təzyiqin azalması ilə bağlıdır. Böhran başlanandan sonra neftin dünya bazar qiymətlərinin kəskin enməsi nəticəsində ölkəyə daxil olan neft pullarının azalması, istehsal sahələrində durğunluğun müşahidə olunması əhalini gəlirlərini daha qənatlə xərcləməyə məcbur etdi ki, bu da son nəticədə məcmu tələbin daralmasına gətirdi. Qonşu Rusiyanın böhrandan daha çox ziyan görən ölkələr siyahısında olması bu ölkədə çalışan həmvətənlilərimizin də gəlirlərinin azalmasına yol açdı. Nəticədə Rusiyadan daxil olan pulların məbləğində də əhəmiyyətli azalma müşahidə olundu. Bütün bunlarla yanaşı, Mərkəzi Bankın manatın məzənnəsi saxlamağa yönəlmiş fəaliyyəti də ölkədə inflyasiyanın cilovlanmasına imkan verdi. Nəticədə 2008-ci ildəki 20.8%-lik inflyasiyaya qarşı 2009-cu ildə 1.5%-lik inflyasiya qeydə alındı.

Müqayisə üçün deyək ki, 2009-cu ildə Ukraynada 12.3%-lik, Belorusda 10.1%-lik, Rusiyada isə 8.8%-lik inflyasiya qeydə alınıb. 2009-cu ildə Azərbaycanın ən iri ticarət partnyoru olan Avropa Birliyində isə İQİ 1.4% təşkil edib.

Rəsmi məlumata görə, 2009-cu ilin dekabr ayında istehlak mallarının qiymətləri və xidmət tarifləri əvvəlki aya nisbətən 0,8%, yanvar-dekabr aylarında əvvəlki ilin müvafiq dövrünə nisbətən isə 1,5% bahalaşıb. 2009-cu ilin yanvar-dekabr aylarında ərzaq məhsulları, içkilər, tütün üzrə 2008-ci ilin yanvar-dekabr aylarına nisbətən 1.5%-lik ucuzlaşma, qeyri-ərzaq məhsulları üzrə 3.4%-lik bahalaşma, xidmətlər üzrə isə 7.1%-lik qiymət artımı qeydə alınıb.

Dövlət Statsitika Komitəsinin rəsmi məlumatına görə, ölkənin iqtisadi rayonları üzrə 2009-cu ilin yanvar-dekabr aylarında əvvəlki ilin müvafiq dövrünə nisbətən istehlak qiymətləri indeksinin dəyişməsində cəmi mallar və xidmətlər üzrə ən yüksək göstərici Bakıda (3.4%) və Lənkəranda (2.6%) müşahidə olunub. Ən aşağı göstərici isə Naxçıvanda qeydə alınıb (-2.7%)

| Aylar | Əvvəlki aya nisbətən, % | İlin əvvəlindən əvvəlki ilin müvafiq dovrunə nisbətən, % |
|---|---|---|
| **2008** | | |
| I | 2.5 | 15.3 |
| II | 2.2 | 15.7 |
| III | 3.1 | 16.5 |
| IV | 3.1 | 17.8 |
| V | 2.3 | 19.2 |
| VI | 0.1 | 20.2 |
| VII | -0.3 | 20.9 |
| VIII | 0.0 | 21.3 |
| IX | 0.9 | 21.5 |
| X | 0.8 | 21.6 |
| XI | 0.1 | 21.4 |
| XII | -0.4 | 20.8 |
| **2009** | | |
| I | -0.6 | 11.9 |
| II | -0.8 | 10.3 |
| III | -0.7 | 8.4 |
| IV | -0.2 | 6.6 |
| V | -0.2 | 4.9 |
| VI | -0.6 | 3.7 |
| VII | 0.8 | 3.1 |
| VIII | 0.1 | 2.6 |
| IX | 0.4 | 2.1 |
| X | 0.4 | 1.7 |
| XI | 1.3 | 1.5 |
| XII | 0.8 | 1.5 |

**Cədvəl 6.** İstehlak qiymətləri indeksi

İqtisadi Tədqiqatlar Mərkəzinin 2009-cu ildə Azərbaycanın 11 regionunda apardığı hesablamalara görə isə, ötən ilin son ayında Azərbaycanda istehlak qiymətləri indeksi 0.93% artıb. Qeyd olunan dövrdə Bakıda qiymətlər regionlara nisbətən 4 dəfədən də çox bahalaşıb – 1.54%. Regionlarda isə bu dövrdə cəmi 0.33%-lik artım müşahidə olunub. 2009-cu ilin dekabrında ən yüksək bahalaşma 1.72% olmaqla ərzaq məhsullarında qeydə alınıb.

İTM-in statistik müşahidələri göstərib ki, 2009-cu il ərzində (yanvar-dekabr) Azərbaycanda 0.56%-lik inflyasiya baş verib. Bu zaman Bakıda 2.67%-lik baha-

| | 2009-cu ilin dekabr ayı 2009-cu ilin noyabr ayına nisbətən | 2009-cu ilin yanvar-dekabr ayları 2008-ci ilin yanvar-dekabr aylarına nisbətən |
|---|---|---|
| Cəmi mallar və xidmətlər üzrə | 100.8 | 101.5 |
| Ərzaq məhsulları, içkilər, tütün | 101.4 | 98.5 |
| Qeyri-ərzaq malları | 100.2 | 103.4 |
| Xidmətlər | 100.0 | 107.1 |

**Cədvəl 7.** Qiymət və tariflərin məcmu və qruplar üzrə indeksləri

laşma, regionlarda isə 1.50%-lik ucuzlaşma olub. Bu dövrdə istehlak səbəti üzrə ən yüksək göstərici olan 9.59%-lik bahalaşma xidmət sektorunda qeydə alınıb.

Mərkəzi Bankda aparılan tədqiqatlar göstərir ki, Azərbaycana xaricdən inflyasiya həm hazır istehlak malları vasitəsilə (birbaşa təsir), həm də aralıq istehlak məhsulları vasitəsilə (dolayı təsir) idxal olunur. Hazır istehlak mallarının qiymətləri tərəfdaş ölkələrdəki inflyasiyadan və manatın nominal effektiv məzənnəsinin dəyişməsindən təsirlənir.

Son illər ölkədə bir çox yeyinti sənayesi sahəsinin inkişafı ilə əlaqədar olaraq aralıq istehlak mallarının idxalı da artıb ki, onların da qiymətlərinin dəyişməsi istehsalın maya dəyərinə və yekunda hazır məhsulun qiymətinə təsir göstərib. Müəyyən olunub ki, son bir ildə Azərbaycana xaricdən inflyasiya idxalının 60%-i birbaşa təsirlə, 40%-i isə dolayı təsirlə izah olunur. Bu amil 2009-cu ildə məzənnə siyasətinin formalaşmasında nəzərə alınıb.

2009-cu ildə ilk dəfə olaraq İQİ və ÜDM deflyatoru kəskin fərqləndi. 1.5%-lik İQİ qeydə alınsa da, ÜDM deflyatoru 20%-in altında oldu. ÜDM deflyatorunun belə enməsi isə istehsalçı qiyməti indeksi ilə bağlı olub.

Dövr ərzində sənaye sahələrində orta illik istehsalçı qiymətləri (SİQİ) 19.2% aşağı düşüb. Orta illik SİQİ-nin aşağı düşməsi əsasən qeyri-neft sektorunda istehsalçı qiymətlərinin azalması ilə əlaqədardır. Qeyri-neft sektorunda istehsalçıların qiymət indeksinin enməsində isə emal sənayesi sahələri başlıca




**Diaqram 8.** 2009-cu ildə aylıq İQİ üzrə DSK və İTM-in məlumatlarının müqayisəsi

| | Cəmi mallar və xidmətlər üzrə | Ərzaq məhsulları, içkilər, tütün | Qeyri-ərzaq malları | Xidmətlər |
|---|---|---|---|---|
| Bakı şəhəri | 103,4 | 99,7 | 103,1 | 111,1 |
| Abşeron | 100,2 | 97.8 | 104,6 | 103,8 |
| Gəncə-Qazax | 101,7 | 98,8 | 103,6 | 107,3 |
| Şəki-Zaqatala | 100,4 | 99,1 | 101,3 | 103,9 |
| Lənkəran | 102,6 | 100,4 | 105,9 | 105,8 |
| Quba-Xaçmaz | 101,3 | 97,1 | 107,4 | 107,1 |
| Aran | 100,6 | 97,5 | 103,5 | 105,1 |
| Yuxarı Qarabağ | 99,6 | 96,5 | 104,9 | 104,9 |
| Dağlıq Şirvan | 99,5 | 97,7 | 97,9 | 106,4 |
| Naxçıvan | 97,3 | 95,0 | 98,1 | 102,4 |

**Cədvəl 8.** İstehlak Qiymətləri İndeksinin dəyişməsi (2009-cu ilin yanvar-dekabr aylarında əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə)

amil olub. Belə ki, il ərzində emal sənayesi sahələrində istehsalçı qiymətləri 7.3% ucuzlaşıb.

Rəsmi məlumatlara görə, ötən ilin dekabr ayında kənd təsərrüfatı məhsullarının istehsalçı qiymətləri indeksi əvvəlki aya nisbətən 1,0% bahalaşıb, yanvar-dekabr aylarında isə 2008-ci ilin müvafiq dövrünə nisbətən 0,3%-lik qiymət artımı qeydə alınıb. Bitkiçilik, bostançılıq və bağçılıq məhsullarının istehlsaçı qiymətlərində 2009-cu ilin yanvar-dekabr aylarında 2008-ci ilin müvafiq dövrünə nisbətən 2.9%-lik ucuzlaşma, Diri mal-qara və heyvandarlıq məhsullarında 0.4%-lik qiymət artımı, meşə təsərrüfatında isə 2.6%-lik bahalaşma müşahidə olunub.

Manatın real effektiv məzənnə indeksi 2009-cu il ərzində 5.5% ucuzlaşıb ki, bu da ölkənin rəqabət qabiliyyətinin artmasına gətirib çıxarıb. Manatın sabitliyi əhalinin yığımlarının dəyərsizləşməsinin qarşısını alıb və ölkədən kapitalın axınına imkan verməyib. Bütünlükdə inflyasiya və məzənnə dəyişmələri 2009-cu ildə Azərbaycanda makroiqtisadi sabitliyin qorunmasına xidmət edib.

# Xarici ticarət

*Ötən il Azərbaycanın xarici ticarət dövriyyəsinin 2,5 dəfədən artıq azalması qeydə alındı. Əgər 2008-ci ildə Azərbaycanın ixrac-idxal əməliyyatları $54 mlrd. 920 mln. təşkil edirdisə, 2009-cu ildə bu göstərici $20 mlrd. 818 mln.-a düşdü. Azərbaycandan ixrac 3,2 dəfədən artıq - 2008-ci ildəki $47 mlrd. 756 mln.-dan 2009-cu ildə $14 mlrd. 698,5 mln.-a qədər - azaldı. Azərbaycana idxal isə cəmi 14,6% azalaraq, $6 mlrd. 119 mln. təşkil etdi. İxracın əhəmiyyətli dərəcədə azalmasına baxmayaraq, ölkənin aktiv ticarət saldosu qorunub saxlandi. 2009-cı ildə Azərbaycanın xarici ticarətində müsbət saldo $8 mlrd. 579 mln. oldu. Müqayisə üçün qeyd edək ki, 2008-ci ildə bu göstərici 4,7 dəfə çox qeydə alınıb və $40 mlrd. 593 mln. təşkil edib.*

| | 1995 | 1996 | 1997 | 1998 | 1999 | 2000 | 2001 | 2002 | 2003 | 2004 | 2005 | 2006 | 2007 | 2008 | 2009 |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| MDB ölkələrinə ixrac | 104 | 102 | 130 | 61 | 91 | 111 | 95 | 109 | 136 | 185 | 147 | 103 | 119 | 147 | 101 |
| Digər ölkələrə ixrac | 93 | 97 | 118 | 93 | 192 | 210 | 139 | 92 | 117 | 133 | 115 | 158 | 91 | 931 | 29 |
| MDB ölkələrindən idxal | 47 | 149 | 103 | 115 | 80 | 115 | 119 | 146 | 131 | 141 | 120 | 145 | 91 | 123 | 80 |
| Digər ölkələrdən idxal | 150 | 141 | 71 | 152 | 106 | 112 | 124 | 103 | 175 | 130 | 119 | 115 | 120 | 127 | 88 |

**Cədvəl 9.** MDB və digər ölkələrlə idxal - ixrac əməliyyatlarinin dinamikası (əvvəlki ilə nisbətən % -lə)

2009-cu ildə Azərbaycanda qeydiyyatda olan hüquqi və fiziki şəxslər dünyanın 137 ölkəsindəki tərəfdaşları ilə idxal-ixrac əməliyyatları aparıblar. Ticarət əlaqələrinin 70,6%-i ixracın, 29,4%-i isə idxalın hesabına formalaşıb. Mal mübadiləsinin 89,6%-i, o cümlədən ixracın 91,7%-i və idxalın 84,5%-i sərbəst dönərli valyuta sövdələşmələri yolu ilə həyata keçirilib.

İxrac-idxal əməliyyatlarının 53,3%-i Avropa, 32,1%-i Asiya, 13,5%-i Amerika, 1,1%-i Afrika qitəsi ölkələrinin və Okeaniyanın payına düşüb.

Azərbaycan ixrac əməliyyatlarının 25,8%-ni İtaliya, 11,9%-ni ABŞ, 9,0%-ni Fransa, 8,4%-ni İsrail, 5,1%-ni Rusiya, 4,6%-ni Tayvan (Çinin əyaləti), 4,5%-ni İndoneziya, 4,0%-ni Kanada, 2,7%-ni Gürcüstan, 2,6%-ni Malayziya, 2,2%-ni İspaniya, 1,8%-ni Hindistan, 17,4%-ni isə digər ölkələrlə aparıb.

Xarici ölkələrə göndərilən malların 92,8%-ni mineral məhsullar, o cümlədən 91,7%-ni xam neft və neft emalı məhsulları, 3,6%-ni ərzaq malları, 1,2%-ni quru, hava və su nəqliyyatı vasitələri, 0,8%-ni az qiymətli metallar və onlardan hazırlanmış məmulatlar, 0,4%-ni plastik kütlə, kauçuk, rezin və onlardan hazırlanmış məmulatlar, 0,3%-ni toxuculuq materialları və məmulatları, 0,2%-ni kimya sənayesi məhsulları, 0,2%-ni maşın və mexanizmlər, elektrotexnika avadanlığı, qalan 0,5%-ni isə digər mallar təşkil edib.

Qlobal tələbatın azalması nəticəsində qiymətlərin enməsi keyfiyyətcə aşağı olan Azərbaycan məhsullarının rəqabətliliyini daha da zəiflətdi. Alüminium və ondan hazırlanan məmulatların ixracı 10 dəfə, kimya sənayesi məhsullarının ixracı 3 dəfə, qara metallar və onlardan hazırlanan məmulatlarin ixracı isə 2 dəfə azaldı, hətta meyvə-tərəvəzin də ixracında 10%-lik azalma qeydə alındı.

Adambaşına düşən qeyri-neft ixracatı 2008-ci ildəki $167-dan 2009-cu ildə $124-a endi. Bəzi ekspertlərin hesablamalarına görə, Azərbaycan adambaşına qeyri-neft ixracatına görə, bir sıra kasıb Afrika ölkələrindən də geri qalır. Onların fikrincə, qeyri-neft iqtisadiyyatının inkişafı sahəsində həyata keçirilən siyasət səmərəsizdir.




**Diaqram 9.** İxracın coğrafiyası




**Diaqram 10.** İxracın strukturu

Ötən il 2008-ci illə müqayisədə bitki mənşəli məhsulların ixracı 10,3%, mineral məhsullar 70,6%, kimya sənayesi məhsulları 68,7%, plastik kütlə, kauçuk, rezin və onlardan hazırlanmış məmulatlar 50,9%, az qiymətli metallar və onlardan hazırlanmış məmulatlar 66,7%, maşın və mexanizmlər, elektrotexnika avadanlığının ixracı isə 35,9% azalıb, heyvan və ya bitki mənşəli piylər və yağların ixracı 4,4%, hazır ərzaq

məhsulları, spritli və spirtsiz içkilər, sirkə, tütün 9,1%, toxuculuq materialları və məmulatları isə 3,2% artıb.

İdxal əməliyyatlarının 17,5%-i Rusiya, 14,8%-i Türkiyə, 9,0%-i Almaniya, 8,4%-i Ukrayna, 7,9%-i Çin, 4,5%-i Böyük Britaniya, 4,3%-i ABŞ, 2,4%-i Yaponiya, 2,3%-i Fransa, 2,2%-i Belarus, 2,1%-i İtaliya, 2,0%-i Koreya Respublikası, 1,9%-i İsveç, 1,9%-i Braziliya, 1,5%-i İsveçrə, 17,3%-i isə digər ölkələrlə aparılıb.

2009-cu ildə ölkəmizə gətirilən məhsulların 34,8%-ni maşın və mexanizmlər, elektrotexnika avadanlığı, 15,7%-ni ərzaq malları, 12,8%-ni quru, hava və su nəqliyyatı vasitələri, 10,8%-ni az qiymətli metallar və onlardan hazırlanmış məmulatlar, 6,6%-ni kimya sənayesi məhsulları, 3,5%-ni optik, fotoqrafik, tibbi, digər cihaz və aparatlar, 2,8%-ni mineral məhsullar, 2,8%-ni plastik kütlə, kauçuk, rezin və onlardan hazırlanmış məmulatlar, qalan 10,2%-ni digər mallar təşkil edib. Hazır ərzaq məhsulları, spirtli və spirtsiz içkilər, sirkə, tütün idxalı 2008-ci ilə nisbətən 6,9%, diri heyvanlar və heyvan mənşəli məhsullar 27,6%, emal olunmamış gön, aşılanmış dəri, təbii xəz, onlardan hazırlanan məmulatlar 16,0%, oduncaq, mantar, onlardan hazırlanan məmulatlar 2,6% artıb, bitki mənşəli məhsullar 39,6%, mineral məhsullar 48,9%, kimya sənayesi məhsulları 8,2%, plastik kütlə, kauçuk, rezin və onlardan hazırlanmış məmulatlar 29,4%, az qiymətli metallar və onlardan hazırlanmış məmulatlar 13,2%, maşın və mexanizmlər, elektrotexnika avadanlığı 3,6%, quru, hava və su nəqliyyatı vasitələrinin idxalı isə 35,9% azalıb.

2009-cu ildə ölkəyə gətirilən kərə yağı və digər süd yağları 2008-ci illə müqayisədə 48,6%, təzə tərəvəz 2,5 dəfə, təzə meyvə 2,0 dəfə, çay 10,0%, xam şəkər 22,2%, mineral və qazlaşdırılmış sular 24,9%, siqaret 3,0%, dərman vasitələri 12,8%, qara metallardan çubuqlar və armaturlar 8,2%, traktorlar 22,2% artıb, quş əti 28,8%, kartof 28,5%, buğda 28,9%, düyü 20,0%, buğda unu 69,0%, bitki piyləri və yağları 13,1%, şokolad məmulatları 3,6%, araq 50,3%, sement klinkerləri və sement 16,6%, uzununa doğranmış meşə materialları 8,5%, minik avtomobilləri 28,8%, yük avtomobilləri 45,6%, avtobusların idxalı isə 30,9% azalıb.

2009-cu ildə Müstəqil Dövlətlər Birliyinə (MDB) üzv olan ölkələrlə ticarət dövriyyəsinin ümumi həcmi $3,0 mlrd., o cümlədən idxal $1 mlrd.826 mln., ixrac $1 mlrd.136 mln. olub. MDB-yə üzv ölkələrlə ticarətdə $690 mln. həcmində mənfi ticarət saldosu yaranıb. Xarici ticarət dövriyyəsinin $17,9 mlrd., və ya 85,8%-i, o cümlədən ixracın 92,3%-i, idxalın isə 70,2%-i MDB-yə daxil olmayan dövlətlərin payına düşüb. Həmin dövlətlərlə ticarət əlaqələrinin 76%-ni ixrac, 24%-ni idxal təşkil edib, $9,3 mlrd. müsbət xarici ticarət saldosu yaranıb.

Ötən il idxal-ixrac əməliyyatlarının azalması nəticəsində xarici ticarətlə məşğul olanların da sayı azalıb. Əgər 2008-ci ildə xarici ticarətlə 13 265 hüquqi və fiziki şəxs məşğul




**Diaqram 11.** İdxalın coğrafiyası




**Diaqram 12.** İdxalın strukturu

olmuşdusa, 2009-cu ildə bu göstərici 9261 enib. Bunlardan 4087-i hüquqi (2008-ci ildə - 4364), 5174-ü (2008-ci ildə - 8901) isə fiziki şəxs olmaqla 2008-ci illə müqayisədə müvafiq olaraq 6,7% və 72% azalma qeydə alınıb.

Dövlət Gömrük Komitəsinin məlumatına əsasən ixrac əməliyyatlarında dövlət sektorunun payı 93,6% və ya $13 mlrd. 760 mln., özəl sektorun payı 5,3% və ya $779 mln., fiziki şəxslərin payı isə $159 mln (1,1%) olub. Göründüyü kimi ölkə ÜDM-nin formalaşmasında 85%-lik paya malik olan özəl sektor ixracda özünün adekvat əksini tapmayıb.

İdxal əməliyyatlarında dövlət sektorunun payı $2 mlrd. 25 mln. (33,08%), özəl sektorun payı $3 mlrd. 793 mln. (62%), fiziki şəxslərin payı isə $302 mln. (4,9%) olub.

# MALİYYƏ BÖLMƏSİ

# İcmal büdcə

2009-cu ildə neftin qiymətinin düşməsi, dövlət sektorunun gəlirlərinin 2008-ci ildəki 19.4 milyard manat ilə müqayisədə 24% azalmasına səbəb olub. Məcmu büdcənin profisitinin ÜDM-ə nisbəti 2008-ci ildəki 19% ilə müqayisədə azalsa da, 2009-cu ildə də 9% təşkil edib. Dövlət büdcə gəlirlərinin azalmasını prioritet təşkil etməyən xərclərin azaldılması və davam edən kapital xərclərinin maliyyələşdirilməsi hesabına tənzimləyib. Nəticədə, dövlət qeyri-neft fiskal defisitin kəskin artımının qarşısını alıb, eyni zamanda sosial xərclərin artımına nail olub. 2007-ci ildəki 26% ilə müqayisədə, 2009-cu ildə büdcə xərclərinin ÜDM-dəki payı 43% təşkil edib ki, gəlirlər üçün müvafiq göstərici 52%-ə bərabər olub.

İcmal büdcənin qeyri-neft kəsiri 2009-cu ildə yüksək olub və qeyri-neft ÜDM-ə nisbəti 2008-ci ildəki 46%-ə qarşı 2009-cu ildə 43% təşkil edib. Dövlət gəlirlərinin və xərclərinin ekpansiyadan sonrakı dövrdə azalması gözlənilir.

2009-cu ilin dövlət büdcəsi qanununun qəbulu çox ziddiyyətli bir şəraitdə baş verdi. Dünyada qlobal böhranın təsirləri artıq açıq-aydın müşahidə edilir, bunun qarşılığında xam neftin dünya bazarında qiyməti kəskin aşağı düşürdü. Bu dövr ərzində, əgər əksər neft ölkələri hökumətləri ciddi və təxirəsalınmaz tədbirlər görərək büdcədə neftin qiymətinin daha aşağı həddə hesablanması, habelə iqtisadi strukturda diversifikasiya yönümlü dəyişikliklər edilməsi haqqında düşünürdülərsə, Azərbaycanda böyük bir arxayınlıq əhvali-ruhiyyəsi hökm sürürdü.

Hökumət Azərbaycan Respublikasının Dövlət Neft Fondunun transferlərinə arxayın olub 2009-cu il üçün neftin qiymətini büdcədə 70 dollardan hesabladı. Bu rəqəm büdcəsi əsasən neftdən asılı olan ölkələr arasında ən yüksək idi. Hökumətin bu cür yanaşması, bir növ, simptomatik idi. Əsasən inzibati amirlik metodlarına əsaslanan ölkə iqtisadiyyatı sanki dünya bazarında nə baş verdiyinin fərqinə varmır, onsuz da Neft Fondu hesabına büdcəni tam icra edəcəyinə əmin olduğunu nümayiş etdirirdi. 2009-cu ilin nəticələri vəziyyətin gözlənildiyindən də gərgin olduğunu göstərdi. Belə ki, 2009-cu ildə dövlət büdcəsinin mədaxil proqnozu 12 177,0 mln. manata qarşı 10 325,9 mln. manat və ya 84,8 faiz icra olunmub ki, bu da 2008-ci illə müqayisədə 436,8 mln. manat və ya 4,1 faiz azdır. Büdcə daxilolmalarının 39,8 faizi və ya 4 113,5 mln. manatı Azərbaycan Respublikasının Vergilər Nazirliyi, 10,8 faizi və ya 1 112,7 mln. manatı Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi tərəfindən təmin edilib, 47,6 faizi və ya 4 915,0 mln. manatı Azərbaycan Respublikası Dövlət Neft Fondundan, 1,8 faizi və ya 1 84,7 mln. manatı sair mənbələrdən daxil olub.




**Diaqram 13.** Büdcə gəlirləri və xərcləri




**Diaqram 14.** Qeyri-neft kəsiri və qeyri-neft ÜDM-i

Azərbaycan Respublikasının Vergilər Nazirliyi mədaxil proqnozunu 71,5 faiz icra etməklə dövlət büdcəsinə 4 113,5 mln. manat vəsait təmin edib ki, bu da proqnoza nisbətən 1 636,5 mln. manat, 2008-ci illə müqayisədə isə 1 581,9 mln. manat və ya 27,8 faiz azdır. Azalmanın əsas səbəbi kimi neftin qiymətindəki nəzərəçarpacaq enməni göstərmək olar. Belə ki, 2009-cu ildə neft ixracı 23,4% artsa da, orta qiymət 2008-ci ildə bir barel üçün 96,5-dən 61 dollara endi.

2009-cu ildə dövlət büdcəsinə vergi orqanları vasitəsilə toplanmış vəsaitin 30,9 faizi və ya 1 272,6 mln.




**Diaqram 15.** 2009-cu ilin büdcə gəlirlərinin strukturu




**Diaqram 16.** Dövlət Neft Fondundan büdcəyə transfertlər

manatı Dövlət Neft Şirkətinin, 12,5 faizi və ya 513,2 mln. manatı Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətinin mənfəət vergisinin payına düşür. Azərbaycan Respublikasının Vergilər Nazirliyi tərəfindən 2009-cu ildə toplanmış ümumi vəsaitlərin 56,6 faizini və ya 2327,7 mln. manatını qeyri-neft gəlirləri təşkil edir ki, bu da proqnoza nisbətən 742,3 mln. manat və ya 24,2 faiz az, 2008-ci ilin müvafiq dövrü ilə müqayisədə isə 70,0 mln. manat və ya 3,1 faiz çoxdur.

2009-cu ildə Dövlət Neft Fondunun gəlirləri 8 176,7 milyon manat, xərcləri isə 5 294,5 milyon manat təşkil edib. Fondun büdcəsinin mədaxil hissəsi 97,8, məxaric hissəsi isə 99,5 faiz yerinə yetirilib. Fonda daxil olan vəsaitin böyük hissəsi (93,4%) mənfəətli neft və qaz satışından yaranıb.

MBQ öz rəyində qeyd edirdi ki: "Xam neftin hər bareli üçün qiymətin hətta 40 dollara düşəcəyi halda belə dövlət büdcəsinin icrasında problem gözlənilmir. Nəzərə almaq lazımdır ki, dövlət büdcəsində neft gəlirlərinin dörddə üçü ARDNF-in transfertlərindən ibarətdir. 2009-cu il üzrə icmal büdcənin gəlirləri proqnozlaşdırılan zaman neftin hökumət tərəfindən hesablama bazası kimi istifadə etdiyi qiymət həddi özünü doğruldarsa, ARDNF-in gəlirləri 14 567 mln. manat təşkil edəcək.

Bu halda 2009-cu ildə fonddan proqnozlaşdırılan büdcə ayırmaları ARDNF-in gəlirlərinin cəmi 34 faizini təşkil edəcək. Yuxarıda qeyd olunduğu kimi, ən pis qiymət ssenarisinin (məsələn, hər barel üçün 40 ABŞ dolları) olacağı halda ARDNF-in proqnozlaşdırılan gəlirlərinin 2 dəfədən çox azalması mümkünsüzdür. Göründüyü kimi, hətta bu cür kəskin azalma şəraitində belə ARDNF nəinki dövlət büdcəsi üzrə öhdəliklərini, habelə fondun öz xərc öhdəliklərini də icra etmək imkanında olacaq. Lakin bu halda ARDNF-in ümumi gəlirlərinin 60 faizə qədəri dövlət büdcəsinə transfer edilə bilər. Nəticədə neftin qiymətinin enməsindən itkilər dövlət büdcəsində deyil, icmal büdcədə hiss olunacaq".

2009-cu ildə ARDNŞ dövlət büdcəsinə 1,47 milyard manat vergi ödəyib. Bu, ötən ilin göstəricisindən 117,1 milyon manat çoxdur. Nəzərə almaq lazımdır ki, artımda az daolsa "Azəriqaz"ın ARDNŞ-nin balansına daxil olmasının payı var. Qeyd edək ki, 2009-cu ildə "Azəriqaz" 40 milyon manat vergi ödəyib. Eyni zamanda, şirkət il ərzində Dövlət Sosial Müdafi ə Fonduna 115,16 milyon manat köçürüb ki, bu da 2008-ci ilin göstəricisindən 7 milyon manat çoxdur. Dövlət büdcəsinin gəlirlərində isə şirkətin payı 14,3% təşkil edib. Gördüyümüz kimi, 2009-cu ildə o qədər də əlverişli olmayan konyuktur ARNDŞ-nin büdcəyə ödəmələrini azaltmadı. Bu həm də onu göstərir ki, ARDNŞ-nin büdcə ödəmələri onun iqtisadi imkanlarından yox, hökumətin çətin anlarda sınanılmış inzibati üsullarını işə salmağından keçir. Digər iri vergi ödəyicilərindən "Azərenerji" ASC 2009-cu ildə dövlət büdcəsinə cəmi 130 milyon manat köçürüb. Bununla yanaşı, Xəzər Dəniz Gəmiçiliyi və "Azərbaycan Dəmir Yolları" QSC kimi iri vergi ödəyicilərinin birlikdə ödəmələri heç büdcə gəlirlərinin 0,5%-ni təşkil etmir. Ümumiyyətlə, diqqətçəkən məqam ondadır ki, ARDNŞ-dən başqa digər əsas iri dövlət müəssisələrinin büdcə ödəmələrində payı müqayisəolunmaz dərəcədə aşağıdır. Müqayisə üçün qeyd edək ki, "Azercell" MMC-nin 2009-cu ildə dövlət büdcəsinə ödəmələri 150 milyon manat təşkil etmişdir.

Böhran ilində, gözlənildiyi kimi büdcə xərclərinin icrasında ciddi dəyişiklikıər baş verdi. Əsasən azalma ilə müşayiət olunan əksər xərc maddələri, daha çox sosial müdafiə və təminat xərclərindən yan keçməklə, investisiya istiqamətində qeydə alındı.

2009-cu il dövlət büdcəsinin icrası ilə bağlı Maliyyə Nazirliyinin məlumatına əsasən, ümumi investisiya xərcləri 3 567,3 mln. manat olmuşdur ki, bu da proqnoza nisbətən 75,4% icra deməkdir. 2008-ci illə müqayisədə azalma 724,7 milyon manat və ya 16,9% olmuşdur. Göründüyü kimi, vəsait çatışmazlığı




**Diaqram 17.** Büdcə xərclərinin strukturu

üzündən ən çox ixtisara məruz qalan istiqamət investisiya xərcləri olub.

2009-cu ildə dövlət büdcəsinin dövlət əsaslı vəsait qoyuluşu xərclərindən təhsil və səhiyyə obyektlərinin tikintisi və yenidənqurulmasına 140 milyon manat vəsait yönəldilib. Yeni məktəblərin tikintisi, məktəblərin əsaslı təmiri və yenidənqurulması, uşaq bağçalarının əsaslı təmiri, dövlət ali təhsil müəssisələrinin əsaslı təmiri və yenidənqurulması məhz bu vəsait hesabına həyata keçirilmişdir. 2009-cu ildə dövlət büdcəsi xərclərində aqrar və ətraf mühitin mühafizəsi xərcləri 2008-ci ilə nisbətən 38,5, mənzil və kommunal təsərrüfatı xərcləri 24,9, ümumi dövlət xidmətləri xərcləri 14,7, məhkəmə hakimiyyəti, hüquq-mühafizə və prokurorluq orqanlarının saxlanılması xərcləri 21,5 faiz çox olub.

Maraqlıdır ki, hətta 2009-cu ildə də sosial xərclər azalmayıb. Belə ki, bu dövrdə sosialyönümlü tədbirlərin (elm, təhsil, səhiyyə, sosial təminat, mədəniyyət xərcləri) maliyyələşdirilməsinə dövlət büdcəsi xərclərinin 26,2 faizi və ya 2 763,0 mln. manatı yönəldilib ki, bu da 2008-ci illə müqayisədə 450,4 mln. manat və ya 19,5 faiz çoxdur.

Böhrana baxmayaraq, hökumətin sosial müdafiə və sosial təminat xərclərini azaltmaması, əksinə, artırması, əslində, müsbət haldır. Daxili istehlak bazarında idxalın xüsusi çəkisinin əhəmiyyətli olması şəraitində yeridilən məzənnə siyasəti ötən il orta illik inflyasiyanın 1,5% səviyyəsində saxlanmasında mühüm rol oynayıb. Aşağı inflyasiya və məzənnə sabitliyi əhalinin sosial vəziyyətinin qorunmasına müəyyən qədər imkan verib, əhalinin pul gəlirlərinin real artımı dövr ərzində 6% olub.

Hələ 2006-cı ildə büdcənin mədaxil hissəsində cəmi 0,2 faiz artımın olması, məxaricin isə 5,8 faiz kəsirlə yerinə yetirilməsi nəticəsində yaranan 78,6 mln. manatlıq profisitin, əsasən, gəlirlərin artımı ilə yox, xərc maddələrinin tam icra edilməməsi ilə bağlı olduğunu göstərmişdik. Büdcəyə edilən əlavə və dəyişikliklərdən sonra büdcə defisiti 2007-ci il dövlət büdcəsinin ilkin variantına nisbətdə 43,5% artaraq 0,5 milyard manat proqnozlaşdırılmışdı (əvvəlki defisit 379 mln. manat, sonrakı defisit 544 mln. manat) və onun gözlənilən illik ÜDM-dəki xüsusi çəkisi 2,5%-ə yaxın olmalı idi. Əslində isə 2007-ci ilin dövlət büdcəsində cəmi 51,1 mln. manat kəsir oldu. 2008-ci ilin büdcə layihəsində 1,126 mlrd. manat kəsir proqnozlaşdırılırdı. Lakin yekunda 2008-ci il üzrə dövlət büdcəsində 11,5 mln. manat həcmində kəsir yarandı. 2009-cu ildə isə büdcə kəsirinin cəmi 178 mln. manat olması nəzərdə tutulmuşdu.

2010-cu ilin büdcəsində fiskal stimullaşdırmanı təmin etmək məqsədilə vergi sistemində bir sıra dəyişikliklər nəzərdə tutulur. Mənfəət vergisi 22%-dən 20%-ə, gəlir vergisinin maksimum dərəcəsi 35%-dən 30%-ə endirilib və kiçik sahibkarların sadələşdirilmiş vergiyə cəlb olunması həddi qaldırılıb. Hökümət 2010-cu ilin büdcə proqnozlaşdırılmasında mühafizəkar siyasətə üstünlük verərək, 1 barel neftin qiymətini 45 dollar götürüb.

# Monetar siyasət

Rəsmi statistikaya görə, inflyasiya 2008-ci ildəki yüksək səviyyəsindən - 15.4%-dən 2009-cu ilin sonuna 1.5%-ə enib. Əlverişli xarici şərait (neftin və ərzağın aşağı dünya qiymətləri) və daxili tələb təzyiqinin azalması ilboyu qiymətlərdə məqbul hərəkətlənməyə səbəb olub. 2009-cu ilin yanvar ayından başlayaraq Mərkəzi Bank (MB) manatın qısa müddət davam edən dollar/avro səbətinə bağlanması siyasətini dəyişərək yeni mənimsədiyi məzənnə rejimi olan manat/dollar kursunun sabitliyinə çox önəm verib və kursun sabitliyini qorumaq istiqamətində qətiyyətini bir daha nümayiş etdirib. Ölkədə və dünyada dolların qiymətinin yüksəlməsi təzyiqi altında MB-nin beynəlxalq rezervləri 2008-ci ilin sonuna mövcud olan 6.5 mlrd dollardan 2009-cu ilin iyul ayına 4.9 mlrd. dollara düşüb və bu da öz növbəsində pul bazasının əhəmiyyətli dərəcədə azalmasına gətirib çıxarıb.

mək hesabına nail olmuşdu .

Əslində xammal qiymətlərindəki dalğalanmaların səbəb olduğu məzənnənin yüksək volatallığı xammal ixrac edən ölkələrə xas xüsusiyyətlərdəndir. Azərbaycanın timsalında MB məzənnə kursunu sabit saxladığı üçün xarici ticarət şokları daxili bazarda dalğalanmalara çevrilib. Belə ki, maliyyə böhranı dövründə (və ya mənfi ticarət şokları ölkə iqtisadiyyatına zərbə vurduğu zaman) pul kütləsini artıraraq böhrana qarşı tədbir görmək lazım olduğu zaman MB-nin məzənnəni sabit saxlamaq cəhdi nəticəsində pul kütləsi daralıb. Sonradan digər alətlər hesabına bu azalma bərpa edilib. Və ya neft qiymətlərinin kəskin qalxdığı dövrlərdə (müsbət ticarət şoku) pul siyasətini sıxmaq lazım gələndə MB-nin məzənnə kursunu qorumaq cəhdləri pul kütləsinin artmasına gətirib çıxarmışdı. Başqa sözlə, ticarət şoklarına tez-tez məruz qalan ölkələrdə




**Diaqram 18.** 2009-cu ildə pul bazasının istiqaməti




**Diaqram 19.** 2001-ci ildən 2009-cu ilə kimi pul bazasının istiqaməti

MB-nin günbəgün güclənən dollar qarşısında manatın məzənnəsini sabit saxlamaq səyləri pul bazasının 2008 dekabr – 2009 aprel dövrü ərzində kəskin daralmasına (təqribən 25%) səbəb olub. Adekvat sterilizasiya rıçaqlarının olmaması MB-nin pul kütləsinin azalmasının qarşısını vaxtında almaq imkanını məhdudlaşdırıb. Oxşar problem yaxın keçmişdə manatın dollar qarşısında güclənəməyə başladığı dövrdə də özünü büruzə vermişdi. O vaxt MB manatın dollara münasibətdə qiymətinin artmasına pul bazasını şişirt-

məzənnəyə müəyyən dərəcədə elastiklik verilməsi bu şokların ölkə iqtisadiyyatına təsirini azaltmaq və pul kütləsindəki arzuolunmaz dalğalanmaların qarşısını almaq yönündə monetar idarəçilərin işini asanlaşdırır.

Antiböhran tədbirləri nəticəsində pul bazasının 2008-ci ilin dekabr səviyyəsi 2009-cu ilin sonunda bərpa edilib. Bu MB-nin istifadə etdiyi dolayı alətlər (rezerv norması, yenidənmaliyyələşdirmə dərəcəsi və s.) hesabına reallaşıb. Bu zaman açıq bazar əməliyyatlarının payı çox kiçik olub.

İlin birinci yarısında MB diskont dərəcəsini 2008-ci ilin dekabrı üçün olan 8%-dən 2009-cu ilin may ayında 2%-ə və bununla yanaşı faiz koridorunun yuxarı həddini 13%-dən 7%-ə edirməklə bank sektorunun likvidlik ehtiyaclarını ödəməyi hədəfləmişdi. Rezerv norması da 6%-dən may ayında 0.5%-ə endirildi. Bundan başqa, MB müvəqqəti likvidlik problemi yaşayan bəzi banklara kredit də ayırmışdı. Noyabrda MB «UniBanka» 50 mln. manat həcmində kredit, digər kommersiya banklarına isə qısamüddətli güzəşt kimi 250 mln. dollar borc vermişdi.

Bütövlükdə birbaşa kreditlər və istifadə olunan dolayı alətlər hesabına (rezerv norması, MB notları, və s.) 2009-cu il ərzində MB iqtisadiyyata 1627 mln. manat injeksiya edib ki, bu da ÜDM-in 5%-ni təşkil edir. Dövr ərzində verilən kreditlərin 22%-i bank sektorunun, digər böyük hissəsi isə strateji dövlət təşkilatlarının (ARDNŞ, «Azəralüminium» və s.) payına düşüb. İl ərzində bank sektorunun qısamüddətli likvidlik məhdudiyyətlərini yumşaltmaq üçün MB 2020.4 mln. manat REPO əməliyyatı icra edib və heç bir əks-REPO əməliyyatı həyata keçirməyib.

Azərbaycan Respublikası Prezidentinin 19 iyun 2009-cu il fərmanı ilə "Azərbaycan Respublikası Milli Bankı haqqında" qanununa edilən dəyişikliklər qüvvəyə minib. Bu dəyişikliklərlə Mərkəzi Bank xarici valyuta ilə uzunmüddətli və subordinasiya kreditlərini bank sektoruna vermək hüququ əldə edib. MB həm də ictimai-iqtisadi əhəmiyyətli layihələri banklar vasitəsi ilə maliyyələşdirmək və ya real sektora likvidlik vermək imkanı qazanıb. Dəyişikliklərdən sonra MB-nin dövlət qiymətli kağızalarının birinci bazarında iştirakına icazə verilib.




**Diaqram 20.** M2 və M3 pul aqreqatlarının dəyişməsi

2010-cu il üçün pul siyasətinin əsas istiqamətlərini əks etdirən bəyanatında MB 3%-lik rəsmi illik inflyasiya hədəfini dəstəkləyəcəyini açıqlayıb. MB-nin elan olunmuş sabit məzənnə rejimi ilə bağlı öhdəçiliyi hər vəchlə yerinə yetirəcəyinə heç bir şübhə yoxdur.

Lakin monetar siyasətə verilmiş rol məzənnənin sabitliyini qoruyub saxlamaq olduğu müddətdə və maliyyə siyasətini dominantlığı şəraitində müstəqil monetar siyasətin aparılması sabit məzənnə siyasəti ilə ziddiyət təşkil edəcək.

# Bank sektoru

Maliyyə böhranına baxmayaraq fəaliyyət göstərən bankların az bir hissəsi (46 bankdan 7-si) öz hesabatlarında 2009-cu ili zərərlə başa vurduqlarını göstəriblər. Bank sektorunun qənaətbəxş vəziyyətini bank mənfəətinin bank kapitalında payını müşahidə etməklə də görmək olar. Belə ki, bu göstərici 21.3%-dən (317 mln. manat) il ərzində 23.2%-ə (408 mln. manata) yüksəlib.

Bankın aktivləri ilin əvvəli ilə müqayisədə 13.5% artaraq 2009-cu ilin sonuna 11665 mln. manata çatıb ki, bunun da 68.3%-ni müştərilərə verilən kreditlər təşkil edib. Ev təsərrüfatlarına verilən kreditlər ümumi kredit portfelinin ən böyük hissəsini təşkil edib, lakin onun səviyyəsində 2008-ci ilin sentyabr ayı ilə müqayisədə azalma müşahidə olunub. Ticarət sektoruna verilən kreditlər portfeldə öz həcminə görə ikinci yerdə gəlir. Kənd təsərrüfatına verilən kreditlər tarixi aşağı səviyyəsində qalmaqda davam edib.

Kredit portfeli 2009-cu ilin ilk rübündə ən aşağı səviyyəsinə çatıb ki, bu zaman ən yüksək azalma xarici valyuta ilə verilən kreditlərdə müşahidə olunub.

Digər tərəfdən milli və xarici valyutada verilən kreditlərin faiz dərəcələri 2008-ci ilin noyabr ayından başlayaraq fərqli dinamika nümayiş etdirib. Manatla verilən kreditlərin faiz dərəcələrində müşahidə edilən enmə kreditlərin həcmində də mülayim azalma ilə yadda qalıb. Bunun əksinə, xarici valyuta ilə verilən kreditlərin həcmindəki kəskin azalma onların faiz dərəcələrində müntəzəm artma ilə müşahidə olunub.




**Diaqram 22.** Kreditlərin faiz dərəcələrinin dəyişməsi




**Diaqram 23.** 2009-cu ildə kreditlərin dinamikası




**Diaqram 21.** 2009-cu ildə kreditlərin sahələr üzrə strukturu




**Diaqram 24.** Kreditlərin valyutalar üzrə strukturu

Sonuncu fakt verilən kreditlərin böyük bir hissəsinin bankların xarici maliyyə bazarlarından aldıqları resurslar hesabına mümkün olduğunun sübutudur. Bank sektorunun bu xüsusiyyəti haqqında bu sektorda mövcud olan kredit/depozit nisbətinin dinamikasını izləməklə də məlumat əldə edə bilərik. Bu nisbətin 100% olması banka depozit qoyulan hər 1 manatın (və ya dolların) bank tərəfindən 1 manat kreditə çevrildiyini bildirir. Bu nisbətin 100%-dən yuxarı olması isə əsasən verilən kreditlərin xarici maliyyə bazarlarından əldə edilmiş resurslar hesabına mümkün olduğunu göstərir.

2009-cu ildə bankların kredit portfelinin strukturunda qısamüddətli kreditlərin payı azalmaqda davam edib. Portfelin valyuta strukturu incələndiyi zaman xarici valyuta ilə verilən kreditlərin ümumi kredit portfelindəki payı 40% olub.

2009-cu ildə daxili tələbi stimullaşdırmaq və əmlak bazarındakı durğunluğun qarşısını almaq üçün MB İpoteka Fondunun effektiv işləməsi üçün müəyyən tədbirlər gördü. Nəticədə verilən ipoteka kreditlərinin həcmi 20% böyüyərək 341.9 mln. manata çatdı.

Bank sektorunun passivlər tərəfinə nəzər saldıqda görürük ki, depozitlər 2009-cu il ərzində də bankların maliyyə resurslarının əsas qaynağı kimi qalmaqda davam edib. Depozit/aktiv (balans) nisbəti 40% olub ki, bu da bir daha xaricdən borclanmanın əhəmiyyətli olduğunu göstərir. Hüquqi şəxslərin depozitləri 18.8% azalaraq 2319.3 mln. manata düşsə, ev təsərrüfatlarının əmanətləri il ərzində 22.5% artaraq 2334.9 mln. manata çatıb.

Bundan başqa MB-nin banklara verdiyi resursların çəkisi bank sektorunun passivlərində artaraq 2.7%-dən 15.2%-ə qalxıb ki, bu da 1466.2 mln. manat həcmində kredit deməkdir.

Qeyd etmək yerinə düşər ki, son illərdə maliyyə sistemi milli iqtisadiyyatda öz mövqeyini möhkəmləndirib və resursların səfərbər olunmasında mühüm rol oynamağa başlayıb. Milli iqtisadiyyatın bu xüsusiyyətini M3 aqreqatının 2003-2009-cu illər ərzində qeyri-neft ÜDM-ində payını (maliyyə dərinliyinin bir ölçüsü) izləməklə də görmək olar.

M3/ÜDM (qeyri-neft) nisbətinin 2003-cü ildə 23% olmasına baxmayaraq bu nisbət 3 il ərzində 3 dəfə artıb. Kredit və M3 aqreqatının qarşılıqlı müqayisəsi də maraqlı məqamları ortaya çıxarıb. Bir nəticə budur ki, ölkə maliyyə sistemində «kredit köpüyü» mövcud




**Diaqram 25.** Kredit-depozit nisbəti




**Diaqram 26.** Kredit-M3 nisbəti

ola




**Diaqram 27.** M3-qeyri-neft ÜDM-i nisbəti

bilər. Əgər belədirsə, MB yalnız bank sektorunun passivlərinə nəzarətlə kifayətlənməməli, həm də bank kreditlərinin sağlam artımı üçün aktivləri də nəzarətdə saxlamalıdır. İkincisi, M3 aqreqatının ümumi iqtisadiyyatda mövcud olan likvidlik haqqında tam dolğun məlumat vermə imkanı məhdudlaşıb.

# Məzənnə siyasəti

2008-ci ilin martında Mərkəzi Bank milli valyutanı dollar-avro səbətinə bağlamaqla yeni valyuta məzənnəsi rejiminə keçdi. Bu idxal olunan inflyasiyanı məhdudlaşdırmaq və ikitərəfli valyuta məzənnəsi riskini aradan qaldırmaqla valyuta sabitliyini təmin etmək üçün zəruri addım idi. 2008-ci il ərzində dollar-avro kursunun volatallığı və manatın dollara münasibətdə ucuzlaşması təhlükəsi 2009-cu ilin yanvarında manatın yenidən dollara bağlanmasına səbəb oldu və Mərkəzi Bankın intervensiyası milli valyutanın devalvasiyasının qarşısını aldı. İntervensiya nəticəsində xarici valyuta ehtiyatları 2008-ci sonundakı 6.5 milyard dollardan 2009-cu ildə 4.9 milyarda endi. 2009-cu ilin sonunda bu ehtiyatlar nisbətən bərpa olunaraq 5.4 milyard dollara qədər qalxdı. Fikrimizcə, 2010-cu ildə qlobal iqtisadiyyatda gözlənilən canlanma və ölkəyə xarici kapital axınının artımı manatın kursunun dəstəklənməsinə müsbət təsir edəcək.

2009-cu ildə manatın nominal effektiv məzənnəsinin 1.8% ucuzlaşmasına baxmayaraq, Azərbaycanda inflyasiyanın ticarət tərəfdaşı olan ölkələrə nisbətən aşağı olması səbəbindən real effektiv məzənnə 6.1% ucuzlaşıb. Belə ki, ötən ilin dekabrına nəzərən Azərbaycanda inflyasiya cəmi 0.6% olduğu halda, ticarət tərəfdaşı olan ölkələrdə müvafiq orta göstərici 5.9% olub.




**Diaqram 28.** Nominal effektiv məzənnə (Dekabr 2000 = 100)




**Diaqram 29.** Real effektiv məzənnə (Dekabr 2000 = 100)

# Sığorta bazarı

2009-cu ilin yanvarından başlayaraq Maliyyə Nazirliyi (MN) sığorta şirkətlərinin kapitallarının qiymətləndirilməsində başqa kriteriyalara əsaslanır. Misal üçün, nazirlik qiymətləndirmə üçün artıq nizamnamə kapitalını ümumi meyar kimi qəbul edir. 2008-ci ilin avqustunda MN minimum kapital tələbini tədricən qaldırmaq üçün proqram qəbul etmişdi. 1 yanvar 2009-cu il tarixinə qədər sığorta və təkrar sığorta şirkətlərindən uyğun olaraq minimum 1 mln. və 2 mln. manat kapitala malik olmaq tələb edilirdi. 1 yanvar 2010-cu il tarixindən başlayaraq kapital tələbləri sığorta şirkətləri üçün 2 mln. manat və təkrar sığorta şirkətləri üçün 4 mln. manat təyin edilib. 2009-cu ilin yanvar ayında sığorta şirkətlərinin icmal nizamnamə kapitalı 79.8 mln. manat təşkil edirdi ki, bu da fəaliyyətdə olan 28 sığorta şirkətinə orta hesabla 2.85 mln. manatın düşməsi deməkdir.

Bank və sığorta şirkətləri arasındakı qarşılıqlı əlaqə əhəmiyyətli dərəcədə qüvvətlidir. Bank sektorundan birbaşa və dolayı kanallarla sığorta yığımları ümumi yığımların 42%-ni təşkil edib. Sığorta portfelində yeni maşınların sığortalanmasından əldə edilən yığımlar 62%, daşınmaz əmlakın sığortalanmasından gələn yığımlar 26%, üçüncü şəxs qarşısında məsuliyyətin sığortası və tibbi sığortadan gələn yığımlar isə 11% olub. Bu günə olan məlumata görə, 15 aparıcı sığorta şirkətindən 12-nin təsisçiləri banklar və ya tərkibində bank olan holdinqlərdir.

2008-ci ilin üçüncü rübündən başlayaraq maliyyə böhranı və ölkənin bank sektorundakı problemlərlə əlaqədar sığorta xidmətlərinə tələb azalmışdı. 2009-cu ilin birinci rübündə sığorta şirkətlərinin yığımları 42.86 mln. manat təşkil etmişdi ki, bu da keçən ilin eyni dövrü ilə müqayisədə 16.9% azalma demək idi. Digər tərəfdən sığorta ödənişləri 10.32 mln. manata qalxmışdı ki, bu da keçən illə müqayisədə 14.8% artımı göstərirdi. Lakin ilin əvvəlində sığorta bazarında müşahidə olunan pisləşmə ilin sonuna doğru yavaşımış və bazarda sabitləşmə hiss olunmuşdu. 2009-cu ilin sonunda, sığorta yığımları 163.3 mln. manata çatmışdı ki, bu da keçənilki göstərici ilə müqayisədə 9% az idi. Sığorta ödənişləri isə 53.01 mln. mant olmuşdu. Bu isə keçən ilə görə 6.4% artım demək idi.

Bank sektorundakı yaxşılaşma ilə paralel olaraq sığorta bazarında da yaxşılaşmanın davam edəcəyi gözlənilir. Lakin müəyyən islahatların həyata keçirilməsi, həyat sığortası bazarının inkişafının stimullaşdırılması, həmçinin məcburi sığorta haqqında qanunun qəbul olunması bu prosesin davamlı olmasını stimullaşdıra bilər.




**Diaqram 30.** Sığorta tələbinin strukturu




**Diaqram 31.** 2009-cu ildə sığorta bazarı




**Diaqram 32.** 2009-cu ildə sığorta bazarı

# Fond bazarı

Cari ildə Azərbaycanda qiymətli kağızlar bazarındakı fəallıq makroiqtisadi proseslərin mühüm təsirinə məruz qaldı. 2009-cu ilin ilk aylarında maliyyə institutları və real sektor arasında dövri əlaqələrin zəifləməsi iqtisadi fəallıqda kəskin durğunluqla müşahidə olundu. Valyuta bazarının volatallığı, banklar və digər iqtisadi subyektlərin likvidliyə olan tələbinin dəyişməsi dövlət qiymətli kağızlar bazarında əməliyyatlara ciddi təsir etdi. Belə ki, il ərzində dövlət qiymətli kağızları bazarında aktivliyin azalması qeydə alındı. Mərkəzi Bankın yumşaq monetar siyasət yeritməsi və əsas sterilizasiya aləti olan qısamüddətli notların buraxılışını 5 dəfə azaltması da öz təsirini göstərdi. Bunun digər mühüm səbəbləri bazarın nisbətən aşağı gəlirliliyə malik olması və bazarda qiymətli kağızları "ödənişə qədər saxlamaq" strategiyasını üstün tutan iştirakçıların əksəriyyət təşkil etməsidir.

Qiymətli kağızlar bazarında tranzaksiyaların həcminin ötən illə müqayisədə 9.7 milyard manatdan 3.4 milyard manata düşməsinə baxmayaraq bazarın infrastukturunda mühüm keyfiyyət dəyişiklikləri baş verib. Cari ildə Maliyyə Nazirliyi ortamüddətli qiymətli kağızlar və bir illik çağırılan istiqrazlar buraxmaqla qiymətli kağızlar bazarında aktiv iştirakçıya çevrilib. Nəticədə, dövlət qiymətli kağızlarının həcmi 55% artaraq 661 milyon manata çatıb.

Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi müxtəlif alətlərdən istifadə edərək korporativ qiymətli kağızlar bazarının genişlənməsində aktiv iştirak edib. Korporativ kağızların həm həcmi, həm də növləri cari ildə artıb. 2009-cu ildə Azərbaycan İpoteka Fondu ilk dəfə bazarda istiqraz yerləşdirib.

Bakı Fond Birjası (BFB) tərəfindən yeni qeydiyyat qaydalarının qəbul edilməsi həm ilkin təkliflərin, həm də təkrar bazarda əməliyyatların artımına səbəb oldu. Nəticədə BFB-də korporativ səhmlər və istiqrazlarla tranzaksiyalar müvafiq olaraq 2.3 və 28 dəfə artıb.




**Diaqram 33.** İlkin yerləşdirmə və təkrar bazar göstəriciləri. 2008-2009




**Diaqram 34.** 2008-ci ildə qiymətli kağızların həcmi




**Diaqram 35.** 2009-cu ildə qiymətli kağızların həcmi

# İQTİSADİYYATIN SAHƏ STRUKTURU

# Sənaye

Sənaye Azərbaycan iqtisadiyyatında ən böyük xüsusi çəkiyə malik olan sahədir. Son illər ölkədə istehsal olunan Ümumi Daxili Məhsulun (ÜDM) yarıdan çoxu məhz bu sahədə formalaşır. 2009-cu ildə qlobal maliyyə-iqtisadi böhran nəticəsində neftin qiymətinin kəskin enməsi sənayenin ÜDM-dəki xüsusi çəkisinin 2007-ci ildəki 59,5% və 2008-ci ildəki 57,4%-dən 50% səviyyəsinə enməsinə səbəb oldu. Sənayenin Azərbaycan iqtisadiyyatda böyük paya malik olmasının əsas səbəbi neft sektorudur. 2009-cu ildə sənaye istehsalının 81,5%-i neft sektorunun və ancaq 18,5% -i qeyri-neft sektorunun payına düşüb.

Ötən il sənayedə 22,2 mlrd. manatlıq sənaye məhsulu istehsal edilmiş, onun 75.7% mədənçıxarma, 18.9% emal, 5.4% elektrik enerjisi, qaz və suyun istehsalı və bölüşdürülməsi bölmələrində yaradılmışdı. Sənaye məhsulunun 90,7%-i və ya 20,1 mlrd. manatlıq həcmi Bakıda istehsal edilib. Paytaxtda sənaye istehsalının artımı 8,9% olduğu halda, ölkə üzrə bu gəstərici 8,6%-ə bərabər olub. Bu isə özlüyündə reğionlarda sənaye istehsalının orta ölkə göstəricindən aşağı olması deməkdir. Sənaye məhsulu istehsalında paytaxtın payının yüksək olması ilk növbədə karbohidrogen hasilatı ilə, istehsal artımı isə hasilatın fiziki həcmlərinin artımı ilə bağlıdır. Digər iqtisadi rayonlarda sənaye məhsulunun istehsalı aşağıdakı kimi olmuşdur:

- Abşeron iqtisadi rayonu - 225,2 mln. manat (o cümlədən Sumqayıt 133,2 mln. manat);
- Gəncə-Qazax iqtisadi rayonu - 147 mln. manat (o cümlədən Gəncə 63,8 mln. manat);
- Aran 587,2 mln. manat;
- Naxçıvan 212,5 mln. manat;

Qalan 887 mln. manatlıq istehsal digər 6 iqtisadi rayonun payına düşüb.

2009-cu ildə əsas sənaye məhsulları olan xam neftin həcmi 13.5% artaraq 50.4 mln. ton, əmtəəlik təbii qaz hasilatı isə 16.3 milyard kub metr olmuşdur (ümumi qaz hasilatı 23,6 milyard kub metr olmuşdur).

Sənayenin mədənçıxarma bölməsi ölkə iqtisadiyyatı üçün xüsusi önəm daşıyır və bu sahədə istehsalın həcmi 16.8 mlrd. manat olaraq 2008-cu ilin göstəricisini 12.5% üstələmişdir.

2009-cu ildə Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti (ABƏŞ) tərəfindən 41,9 mln. ton neft və ya 16.8% çox, 10,1 milyard kub metr və ya 9,0% çox əmtəəlik təbii qaz hasil edilmişdir. Eyni zamanda, bu sahədə fəaliyyət göstərən müştərək müəssisələr xam neft hasilatını 5,5% artırmışlar. "Azəri-Çıraq-Günəşli"




**Diaqram 36.** İqtisadi rayonlar üzrə sənaye məhsulunun istehsalı (manatla)




**Diaqram 37.** 2009-ci ildə sənaye sahələri üzrə istehsalın dinamikası (2008-ci illə müqayisədə, %-lə)

| İllər | Neft, milyon tonla | Qaz, milyon kubmetrlə |
|---|---|---|
| 1995 | 9,2 | 6 644 |
| 2000 | 14,0 | 5 642 |
| 2001 | 14,9 | 5 535 |
| 2002 | 15,3 | 5 144 |
| 2003 | 15,4 | 5 128 |
| 2004 | 15,5 | 4 995 |
| 2005 | 22,2 | 5 732 |
| 2006 | 33,2 | 9 080 |
| 2007 | 42,6 | 16 850 |
| 2008 | 44,5 | 22 800 |
| 2009 | 50,4 | 23 600 |

**Cədvəl 10.** Azərbaycanda neft və qaz hasilatı

yataqlar blokunu işlədən Konsorsium tərəfindən ötən il satılmış neftin 64,7%-i Azərbaycanın payına düşmüşdür.

Hasilatına 2009-cü ilin yayından başlanmış və iqtisadiyyat üçün xüsusi önəmi olan qızıl hasilatı 333 kq səviyyəsində olmuşdur.

Sənayenin ikinci böyük xüsusi çəkiyə malik emal bölməsində 7,7%-lik azalma müşahidə olunub. Burada 4,2 mlrd. manatlıq məhsul istehsal olunmuşdur. İstehsalın daha çox hissəsi – içki və tütün də daxil olmaqla qida məhsulları istehsalının payına düşmüşdür. Qida məhsullarından şəkər istehsalı 16.5% artaraq 314.9 min ton, çay 8.4% artaraq 7.7 min ton, ət 2.8% artaraq 159.5 min ton, süd 3.0% artaraq 61.7 mln. dkl, kərə yağı 0.9% artaraq 14.2 min ton, şampan şərabı 13.4% artaraq 40.6 min dkl, pivə 12.3% artaraq 3.6 mln. dkl, araq 12.4% artaraq 841.8 min dkl olmuşdur.

| Məhsul növləri | 2009-cu ilin yanvar-dekabr aylarında istehsal edilib | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, %-lə | 01.01.2010-cu il vəziyyətinə hazır məhsul ehtiyatı |
|---|---|---|---|
| **Xam neft və təbii qaz hasilatı** | | | |
| Xam neft, 1000 ton | 50 376.3 | 113.5 | 213.8 |
| dövlət sektoru | 7 254.9 | 98.4 | 140.7 |
| qeyri-dövlət sektoru | 43 121.4 | 116.5 | 73.1 |
| Təbii qaz (səmt qazı daxil olmaqla), milyon $m^3$ | 23 584.0 | 100.8 | - |
| ***o cümlədən əmtəəlik*** | **16 322.7** | **99.9** | **-** |
| dövlət sektoru | 6 215.3 | 88.2 | - |
| qeyri-dövlət sektoru | 10 107.4 | 108.8 | - |
| **İçki istehsalı (başqası göstərilmirsə, qeyri-dövlət sektoru)** | | | |
| Şampan şərabı, 1000 dkl | 40.6 | 113.4 | 7.9 |
| Araq, 1000 dkl | 841.8 | 112.4 | 38.3 |
| Üzüm şərabı, 1000 dkl | 407.5 | 49.9 | 111.1 |
| Pivə, 1000 dkl | 3 627.6 | 112.3 | 193.9 |
| Brendi (konyak), 1000 dkl | 21.1 | 33.7 | 53.2 |
| Alkoqolsuz içkilər, 1000 dkl | 16 667.3 | 81.2 | 525.7 |
| **Sair qida məhsullarının istehsalı (başqası göstərilməyibsə, qeyri-dövlət sektoru)** | | | |
| Qənd və şəkər tozu, min ton | 314.9 | 116.5 | 1.1 |
| Çörək və çörək-bulka məmulatları, min ton | 728.8 | 98.0 | - |
| Qənnadı məmulatları, ton | 45 731.6 | 108.3 | 361.1 |
| dövlət sektoru | 71.3 | 55.5 | - |
| qeyri-dövlət sektoru | 45 660.3 | 108.4 | 361.1 |
| Qablaşdırılmış təbii çay, ton | 7 731.0 | 108.4 | 366.6 |
| Papiros və siqaretlər, mln. ədəd | 2 339.2 | 87.9 | 93.0 |
| **Neft məhsullarının istehsalı (başqası göstərilməyibsə, dövlət sektoru)** | | | |
| Avtomobil benzini, min ton | 1237.7 | 93.8 | 30.1 |
| Neft-kimya sənayesində istifadə üçün benzin, min ton | 260.3 | 84.4 | 13.6 |
| Ağ neft, min ton | 609.6 | 79.1 | 10.5 |
| Dizel yanacağı, min ton | 2 366.5 | 93.7 | 92.3 |
| Sürtkü yağları, min ton | 44.9 | 67.9 | 12.3 |
| Neft bitumu, min ton | 236.2 | 107.2 | 3.4 |

| Məhsul növləri | 2009-cu ilin yanvar-dekabr aylarında istehsal edilmişdir | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, %-lə | 01.01.2010-cu il vəziyyətinə hazır məhsul ehtiyatı |
|---|---|---|---|
| **Kimya sənayesi (başqası göstərilməyibsə, dövlət sektoru)** | | | |
| Azot, mln. kub metr | 13.2 | 79.0 | - |
| Propilen, min ton | 22.2 | 63.4 | 0.5 |
| Polietilen, min ton | 41.8 | 64.6 | 3.2 |
| İzopropil spirti (mütləq), min ton | 10.0 | 45.8 | 6.7 |
| Lak-boya məmulatları, ton (qeyri-dövlət sektoru) | 2 728.8 | 116.3 | 299.8 |
| **Sement, əhəng və gips istehsalı (başqası göstərilməyibsə, qeyri-dövlət sektoru)** | | | |
| Sement, 1000 ton | 1 280.9 | 80.3 | 13.9 |
| Tikinti gipsi, ton | 45 617.1 | 118.9 | 961.3 |
| Tikinti əhəngi, ton | 248.7 | 56.2 | 1.5 |
| dövlət sektoru | 10.0 | - | 1.5 |
| qeyri-dövlət sektoru | 238.7 | 54.0 | - |
| **Metallurgiya (başqası göstərilməyibsə qeyri-dövlət sektoru)** | | | |
| Çuquntökmə, ton | 1 549.4 | 90.2 | 693.6 |
| dövlət sektoru | 1 549.4 | 90.2 | 693.6 |
| Poladtökmə, min ton | 49.5 | 66.2 | 1.4 |
| dövlət sektoru | 39.2 | 59.9 | - |
| qeyri-dövlət sektoru | 10.3 | 109.6 | 1.4 |
| Armatur, min ton | 110.8 | 54.5 | 10.3 |
| **Elektrik enerjisi, qaz və suyun istehsalı və bölüşdürülməsi** | | | |
| Elektrik enerjisi, mln. kVt-saat | 17 762.6 | 87.2 | - |
| o cümlədən: | | | |
| su elektrik stansiyalarının istehsalı | 2 228.4 | 100.2 | - |
| istilik elektrik stansiyalarının istehsalı | 15 534.2 | 85.6 | - |

**Cədvəl 11.** Əsas sənaye məhsullarının istehsalı və dinamikası

Emal sənayesində ikinci böyük xüsusi çəkisi olan neft məhsullarının istehsalı sahəsində 1 mlrd. 346 mln. manatlıq məhsul istehsal olunmuşdur. İl ərzində 1237.7 min ton avtomobil benzini, 609.6 min ton ağ neft, 2366.5 min ton dizel yanacağı istehsal edilmişdir. Avtomobil yollarının çəkilişi üçün mühüm əhəmiyyətə malik olan neft bitumunun istehsalı yanvar-dekabr aylarında 7,2% artmış və 236.2 min ton təşkil etmişdir.

Kimya sənayesində, rezin və plastik kütlə məmulatları istehsalı müəssisələri tərəfindən 163.1 mln. manatlıq məhsul istehsal edilmişdir. 2008-ci ilin ortalarında başlanmış maliyyə iqtisadi böhran ilə əlaqədar dünya bazarlarında neft-kimya məhsullarının satış qiymətlərinin kəskin aşağı düşməsi 2009–cü ilin əvvəlindən kimya sənayesi müəssisələri üçün ciddi çətinliklər yaratmış və bu səbəbdən müəssisələr böyük fasilələrlə işləmişdir.

2008-ci illə müqayisədə ötən il məhsul istehsalı kimya sənayesində 37.8%, rezin və plastik kütlə məmulatları istehsalında isə 15.0% azalmışdır. Əsas kimya məhsullarından azotun, propilenin, polietilenin, izopropil spirtinin istehsalı aşağı düşmüşdür. Lak-boya məmulatlarının istehsalında (16.3 %), yuyucu maddələrin (31.4 %), plastik pəncərə qapaqlarının və jalüzlərin (77.8 %) istehsalında artım olmuşdur.

Tikinti materialları sənayesində istehsal və

göstərilmiş xidmətlərin həcmi 15,1% azalmışdır. Bu sahədə əsas məhsullardan olan sement və sementdən hazırlanan məhsulların istehsalı tikintinin həcminin kəskin azalması ilə əlaqədar aşağı düşmüşdür. Ancaq asfalt istehsalı 2.0 dəfə artmış, həmçinin, keramika tavaları və lövhələrinin də istehsalı ötən illə müqayisədə 41.9%, tikinti gipsi isə 18.9% çox olmuşdur. Müəssisələr tərəfindən 1.3 mln. ton sement, 18.9 min kub metr sementdən yığma-tikinti konstruksiyaları, 5.5 min ton tikinti blokları istehsal edilmişdir.

Metallurgiya sənayesi və hazır metal məmulatlarının istehsalı müəssisələrində 170 mln. manatlıq məhsul istehsal olunmuş, xidmətlər göstərilmişdir. İl ərzində bu sahədə 1.5 min ton çuquntökmə, 312.5 ton məftil, 1621 ədəd alüminiumdan qapı və pəncərə blokları istehsal edilmişdir.

Maşın və avadanlıqların istehsalı, elektrik və elektron avadanlığı, nəqliyyat vasitələri və avadanlıqlarının istehsalı sahəsində məhsul istehsalının həcmi 347 mln. manat olmuşdur. Ölkədə ilk dəfə olaraq Gəncə Avtomobil Zavodunda 6 ədəd "Kəpəz" markalı avtokran istehsal edilmişdir. 2009-cu ildə 9227 ədəd televizor istehsal olunmaqla 16,7% çoxalmış, kassa aparatlarının istehsalı isə əvvəlki illə müqayisədə artaraq 284 ədəd olmuşdur.

Sənayedə elektrik enerjisi, qaz və suyun istehsalı və bölüşdürülməsi bölməsinin xüsusi çəkisi 5.4%-dir. Elektrik enerjisi istehsalının azalması səbəbindən sahə üzrə sənaye məhsulunun və göstərilmiş xidmətlərin həcmi 10,8% azalmış və 1 mlrd.203 mln. manat təşkil etmişdir. Ölkədə 17.8 milyard kVt-saat elektrik enerjisi istehsal olunmuş, onun 12.5 %-i su elektrik stansiyalarının, 87.5 %-i isə istilik elektrik stansiyalarının payına düşmüşdür.

Sənayedə fəaliyyət göstərən səhmdar cəmiyyətlərinin məhsul istehsalı 839.3 mln. manat olmaqla, ümumi sənaye buraxılışının 3,8%-ni təşkil edib.

2009-cu il ölkədə fəaliyyət göstərən müəssisə və təşkilatlarda çalışan muzdlu işçilərin 12.1%-i və ya 161.2 min nəfəri ölkə sənayesində işləmişdir. İşçilərin hər beş nəfərindən üçü sənayenin dövlət bölməsinə, hər beş nəfərindən ikisi isə qeyri-dövlət bölməsinə məxsus müəssisələrdə çalışmışdır. Mədənçıxarma sənayesi üzrə fəaliyyət göstərən müəssisələrdə çalışan işçilər bütün sənayeçilərin 22.7%-ni, elektrik enerjisi, qaz və suyun istehsalı və bölüşdürülməsi ilə məşğul olanlar 25.7%-ni, emal sənayesində çalışanlar isə 51.6%-ni təşkil etmişdir.

Sənaye işçilərinin orta aylıq əmək haqqı 439 manat təşkil etmiş və 2008-ci illə müqayisədə 3,1% artmışdır. Qeyri-dövlət müəssisələrində işçilərin əmək haqqı 524 manat olmaqla dövlət müəssisələrində işləyənlərin əmək haqqından 1,4 dəfə yüksək olmuşdur. Əmək haqqı emal sənayesində 7.6%, elektrik enerjisi, qaz və suyun istehsalı və bölüşdürülməsi bölməsində isə 4.4% artmışdır, mədənçıxarmada isə 0,1% azalmişdir.

Əgər qeyri-dövlət sektoru əmək haqlarını böhran dövrünə müvafiq olaraq artırmamış, ümumilikdə 0,4% azaltmışdırsa, əksinə dövlət sektoru əmək haqlarını 5,6% artırmışdır. Neft sektoru üzrə bir işçinin orta aylıq nominal əmək haqqı 990 manat olaraq 0,9% azalmışsa da, sektorda çalısan Azərbaycan vətəndaşlarının əmək haqları 6,5% artaraq 752 manatı keçmisdir.

Neft məhsullarının istehsalı sahəsində əmək haqları 10,9% artaraq 506 manata çatmışdır. Əmək haqlarının neftin dünya bazar qiymətlərinin düşməsi fonunda məhz bu sahədə artması iqtisadi nəzəriyyə ilə izah olunmasa da, sahənin dövlət inhisarında olub, hələ də Sovetlər üslubunda idarəolunması ilə çox asan izah olunur.

Əmək haqqının daha yüksək səviyyəsi neft sektorunda, nəqliyyat avadanlıqlarının istehsalı, metallurgiya və digər qeyri-metal mineral maddələrin istehsalı sahələrində müşahidə olunmuşdur.

Sənaye məhsullarının istehsalçı qiymətləri 2009-cu ildə 2008-ci ilə nisbətən 19,2 % azalmış və əsas bölmələr üzrə aşağıdakı kimi olmuşdur.

| | 2009/2008 (%-lə) |
|---|---|
| Sənaye məhsullarının istehsalçı qiymətləri indeksi | 80.8 |
| Mədənçıxarma sənayesi | 66.9 |
| o cümlədən: | |
| Neft və qaz hasilatı | 66.6 |
| Mədənçıxarma sənayesinin digər sahələri | 88.4 |
| Emal sənayesi | 92.7 |
| Elektrik enerjisi, qaz və suyun istehsalı və bölüşdürülməsi | 100.9 |

**Cədvəl 12.** Sənayedə itehsalçı qiymətləri indeksi

# Kənd təsərrüfatı

Kənd təsərrüfatı sektorunun inkişafı regionlarda yoxsulluğun azaldılması və ərzaq təhlükəsizliyinin təmin olunması baxımından vacibdir. Aqrar sahə Azərbaycanın neft pullarının təsirinin az hiss olunduğu kənd yerləri üçün gəlirin və stabilliyin vacib mənbələrindəndir. Azərbaycanın ev təsərrüfatlarında ərzaq xərclərinin payı ələlxüsus da, kənd yerlərində, daha yüksəkdir. Beləliklə, kəndlərdə ev təsərrüfatları ərzaq ehtiyacının böyük bir hissəsini aqrar sahənin hesabına ödəyir.

Azərbaycanın kənd təsərrüfatı sektorunda 2009-cu ildə 3.5 faiz artım qeydə alınıb. Kənd təsərrüfatında istehsalın təxminən 37%-i heyvandarlığın, 63%-i isə əkinçiliyin payına düşür. Kənd təsərrüfatı naziri İsmət Abbasovun sözlərinə görə, 2009-cu ildə Azərbaycanda bəzi məhsul növlərində rekord göstəricilər əldə olunub və 2010-cu ildə bu ənənə davam edəcək. Rəsmi məlumatlata görə, 2009-cu ildə heyvandarlıqda 2.2%-lik yüksəlişə nail olunub. Bundan başqa, bu dövrdə kənd təsərrüfatı məhsullarının, xüsusilə təbii fəlakət nəticəsində pambıq və bəzi bostan bitkilərinin əkin sahəsi azalıb. Ölkədə pambıq plantasiyalarının azalmasına münasibət bildirən Abbasov qeyd edib ki, 2010-cu ildə dünya bazarında pambığa tələb artdığından qiymətlər yüksəlib. Nazirin sözlərinə görə, emal müəssisələri pambıq əkən fermerləri stimullaşdırmağa başlayacaq. Hətta bunun üçün fermerlərə zəruri maliyyə dəstəyi də veriləbilər.

2009-cu ilin yanvar-avqustunda Azərbaycandan 204.263 milyon dollarlıq kənd təsərrüfatı məhsulları, o cümlədən 93.4 milyon dollar məbləğində bitkiçilik, 10.575 milyon dollar məbləğində heyvandarlıq məhsulları ixrac edilib.

Bu dövr ərzində Azərbaycana 449.691 milyon dollarlıq kənd təsərrüfatı məhsulları, o cümlədən 174.251 milyon dollarlıq bitkiçilik, 36.059 milyon dollarlıq heyvandarlıq və 239.367 milyon dollarlıq ərzaq idxal edilib.

Kənd təsərrüfatı məhsullarının satışı üçün 343 yarmarka keçirilib, belə yarmarkalarda 77 min ton məhsul satılıb.

2009-cu ildə Azərbaycanda ÜDM-in 6.7%-i kənd təsərrüfatının payına düşüb. Rəsmi statistikaya görə, 2009-cu ildə 2988.3 min ton taxıl, 1177.9 min ton tərəvəz, 983 min ton kartof, 721 min ton meyvə, 411 min ton tarla bitkiləri istehsal edilib. 1995-ci illə müqayisədə ölkədə taxıl istehsalı 3.2 dəfə, tərəvəz istehsalı 2.8 dəfə, meyvə istehsalı 2.2 dəfə, kartof istehsalı 6.3% artıb. 2009-cu ildə Azərbaycanda 2320.6 milyon manat dəyərində kənd təsərrüfatı məhsulu istehsal olunub. İstehsal olunmuş məhsulların faktiki qiymətlə məbləği 3433.4 milyon manat təşkil edib ki, bu da 2008-ci ilə nisbətən 3.5% çoxdur.

1999-cu ildə başlayaraq kənd təsərrüfatı məhsullarının istehsalçıları torpaq vergisi istisna olmaqla, bütün vergilərdən azad edilib. Bundan başqa, fermerlərin motor yağı, gübrə və yanacağın alınmasına xərclədiyi vəsaitin 50 faizini hökumət ödəyir. Aqrar sahədə maddi-texniki təchizatı yaxşılaşdırmaq üçün qurulmuş "Aqrolizinq" istehsalçılara güzəştli qiymətlərlə xidmətlər təklif edir. Kənd təsərrüfatında köhnəlmiş texnika ilə yerinə yetirilən işlər aşağı keyfiyyətli olur, nəticədə 30-40 milyon manat məbləğində məhsul itirilir. Buna görə də, cari tələbləri qarşılamaq üçün xidmət müəssisələrinin böyük şəbəkəsinin təşkili vacibdir.

«Aqrolizinq» Açıq Səhmdar Cəmiyyəti Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 23 oktyabr 2004-cü il tarixli 468 nömrəli sərəncamı əsasında yaradılıb. Prezidentin 22 sentyabr 2005-ci il tarixli 1019 nömrəli və 23 yanvar 2007-ci il tarixli 1907 nömrəli sərəncamları ilə Cəmiyyətin fəaliyyəti genişləndirilib. «Aqrolizinq» Açıq Səhmdar Cəmiyyətinin əsas vəzifəsi kənd təsərrüfatı məhsulu istehsalçılarının maddi-texniki bazasını möhkəmləndirmək və onlara aqrotexniki xidmətlər göstərməkdən ibarətdir. Cəmiyyət kənd təsərrüfatı məhsulu istehsalçılarını əsasən kənd təsərrüfatı texnikası, texnoloji avadanlıq, ehtiyat hissələri, aqrokimyəvi maddələr və ziyanvericilərə qarşı mübarizə preparatları ilə təmin edir.

Cəmiyyət aqrar sahədə fəaliyyət göstərən sahibkarların sifarişləri əsasında sərfəli tariflə cəmi 20 addan çox müxtəlif xidmət işləri (əkin, səpin, becərmə, məhsul yığımı və sair) yerinə yetirir, məhsulun müasir texnologiyaya uyğun istehsalında onlara kömək göstərir. Cəmiyyətin respublikanın rayonlarında 4 rayonlararası təchizat bazası, 55 təsərrüfat hesablı rayon aqroservis filialı və onların 100-dən çox mexanikləşdirilmiş dəstələri, Bakı şəhərində 1




**Diaqram 38.** Kənd təsərrüfatı istehsalının strukturu (mln.AZN)

mərkəzi təchizat bazası Regionların Sosial-iqtisadi İnkişafı Dövlət Proqramının həyata keçirilməsində fəal iştirak edir.

Səhmdar Cəmiyyət 2005-ci ildən fermerləri 9467 ədəd aqrar texnika, o cümlədən taxıl biçini üçün 990 kombayn, 2494 traktor, kənd təsərrüfatı üçün 5843 maşın və qoşqu, 46 ədəd texniki avadanlıqla təmin edib.

Əkinçilik məhsullarının həcmi və strukturu 2009-cu ildə də dəyişib. Taxıl istehsalı 1999-cu ildəki 1098,3 min tondan 2009-cu ildə 3000 min tona çatıb. Bundan başqa kartof, tərəvəz və meyvə istehsalı da kəskin artıb. Qeyd edilməlidir ki, 2009-cu ildə kartof, tərəvəz və bostan məhsullarının istehsalı illik tələbatı üstələyib və ixrac imkanları genişlənib. Buna baxmayaraq yenə də əkinçilik məhsullarının məhsuldarlığı aşağı səviyyədə qalır. Əgər məhsuldarlıq artırılsa, daha çox kənd təsərrüfatı məhsulu istehsal edilə bilər ki, bu da ixracın artımı və idxalın əvəzlənməsi baxımından əhəmiyyətlidir.

Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 25 avqust tarixli sərəncamı ilə təsdiq edilmiş "2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı" aqrar sahənin davamlı inkişafının təmin edilməsində mühüm rola malikdir. Dövlət Proqramının yerinə yetirilməsi ilə əlaqədar həmin sənəddə 164 tədbir nəzərdə tutulur ki, onun da 101-i kənd təsərrüfatı sahəsinə aiddir. Dövlət Proqramında əsas hədəf kimi 2015-ci ildə taxılın məhsuldarlığının hər hektardan 32 sentnerə, ümumi istehsalın 2.8 milyon tona, ət istehsalının 340 min tona, süd və süd məhsulları istehsalının 2.4 milyon tona, quş əti istehsalının 80 min tona, yumurta istehsalının 1.3 milyard ədədə, kartof istehsalının 1.12 milyon tona, tərəvəz və bostan məhsulları istehsalının 1.72 milyon tona, meyvə istehsalının 800 min tona, çay yarpağı istehsalının 3 min tona çatdırılması nəzərdə tutulub. Proqramda qeyd edilən məqsədlərə nail olunması üçün aqrar sahənin qarşısında mühüm vəzifələr durur. Eyni zamanda, bu vəzifələrin yerinə yetirilməsi üçün dövlət tərəfindən fermerlərə qayğı və diqqət göstərilir.

Son illərdə dövlət toxumçuluq, tingçilik və damazlıq müəssisələrində əvvəlki illərlə müqayisədə müəyyən irəliləyişlər əldə edilib. Kənd təsərrüfatı nazirinin müavini Aslan Aslanov bildirib ki, 2009-cu ildə ümumilikdə adıçəkilən təsərrüfatlarda 5931 hektar sahədə taxıl əkini aparılıb, 11171 min ton məhsul istehsal edilib ki, bu da 2008-ci illə müqayisədə təqribən 2 min ton, 2007-ci illə müqayisədə isə 6 min ton çoxdur. 2009-cu ildə elmi-tədqiqat institutlarının təcrübə təsərrüfatlarında istehsal edilən elit və superelit toxumlarına görə dövlət büdcəsindən ödənilən subsidiyaların həcmi 927.4 min manat, dövlət və özəl toxumçuluq təsərrüfatlarında istehsal edilən I və II reproduksiyalı toxumlara və tinglərə görə büdcə subsidiyalarının həcmi 5 milyon manat təşkil edib.




**Diaqram 39.** 2008-ci il əkinçilik məhsullarının istehsalı (1 000 ton)




**Diaqram 40.** Məhsuldarlıq (1000 s/ha)

Rusiya Federasiyasından gətirilmiş, özəl toxumçuluq təsərrüfatlarında əkilən I reproduksiyalı buğda toxumunun əkin sahəsi 953.8 hektar, məhsuldarlıq səviyyəsi 34.7 sentner, ümumi məhsul istehsalı 3312.9 min ton, ondan kondisiyalı toxum istehsalı 2636.6 min ton təşkil edib.

2008-ci illə müqayisədə 2009-cu ildə bütün təsərrüfat kateqoriyaları üzrə mal-qaranın baş sayı və heyvandarlıq məhsulları istehsalı artıb. Belə ki, 2009-cu il 1 iyul vəziyyətinə, ölkə üzrə 2583.7 min baş qaramal, o cümlədən, 1248,5 min baş inək və camış, 8446.8 min baş qoyun və keçi mövcud olub ki, bu da 2008-ci illə müqayisədə müvafiq olaraq 2.0%; 2.1%; 1.6% çoxdur. 1 iyul 2009-cu il vəziyyətinə, ölkə üzrə 147.3 min ton ət, 700.6 min ton süd, 614.1 min ədəd yumurta, 13.0 min ton yun istehsal edilib. 2008-ci illə müqayisədə ət istehsalı 1.5 min ton, süd istehsalı 17.2 min ton, yumurta istehsalı 67.9 min ədəd, yun istehsalı 0.3 min ton artıb.

Heyvandarlıqda damazlıq təsərrüfatlarının fəaliyyətinin genişləndirilməsinə diqqət yetirilməsi aqrar sahənin davamlı inkişafının təmin edilməsi baxımından mühüm əhəmiyyətə malikdir. Bu baxımdan Azərbaycan Respublikasında lizinq yolu ilə güzəştlə satın alınmış düyələrin

təsərrüfatlar üzrə paylanması təmin edilib. 3 sentyabr 2009-cu il tarixə, təsərrüfatlara 770 baş düyə satılıb, onlardan da 535 başı bala verib. Bu praktikanın genişləndirilməsi hazırda diqqət mərkəzindədir. Ölkə üzrə kənd təsərrüfatı məhsulları istehsalının intensivləşdirilməsi hazırda qarşıda duran ən mühüm vəzifələrdən biri hesab olunur.

İqtisadi İnkişaf Nazirliyi artıq beynəlxalq standartlara cavab verən texnologiya əsasında soyuducu anbar komplekslərinin yaradılması üçün investisiya layihələrinin maliyyələşdirilməsi prosesinə start verib. Belə ki, 2009-cu il iyulun 31-də nazirliyin Sahibkarlığa Kömək Milli Fondu soyuducu anbar komplekslərinin tikintisi üzrə sahibkarlıq subyektlərinin təqdim etdiyi 12 investisiya layihəsinin maliyyələşdiriləcəyini elan edib. Bu layihələr ölkənin 4 iqtisadi rayonunu əhatə edir: Quba-Xaçmaz iqtisadi rayonu üzrə 6, Aran iqtisadi rayonu üzrə 4, Lənkəran və Gəncə-Qazax iqtisadi rayonlarının hər birində 1 investisiya layihəsi nəzərdə tutulur. Hər biri 2000 tonluq olan anbarlardan Aran, Lənkəran, Quba-Xaçmaz və Gəncə-Qazax iqtisadi rayonlarında meyvə-tərəvəz və digər ərzaq məhsullarının tədarükü, saxlanılması və satışı üçün istifadə olunacaq.

2009-cu ildə dövlətin kənd təsərrüfatı istehsalına vergi imtiyazı, güzəştli subsidiyalaşdırma və kerditləşdirmə siyasəti, habelə investisiya qoyuluşu hesabına verdiyi dəstək 700 milyon manat civarında olub.

2009-cu ildə də kommersiya kreditinin faiz dərəcələri ilə kənd təsərrüfatında rentabellik səviyyəsi arasında kəskin fərq olması aqrar sahəni bank kapitalı üçün maraqsız edib. Xüsusilə, qlobal iqtisadi böhran şəraitində özəl banklar aqrar sektora kredit ayırmağa bir o qədər də həvəs göstərməyib. 8641.5 min hektar torpaq fondu olan Azərbaycanda ərazinin yalnız 54.9%-i kənd təsərrüfatına yararlıdır. Bu ərazilərin də əksəriyyəti - 2915.4 min hektarı daimi bitkilər (bağlar, üzümlüklər, tingliklər, çay plantasiyaları) otlaqlar və biçənəklər altında olan torpaqlardır. Cəmi 1.8 milyon hektar sahə şumluq kimi istifadə olunur.

Suvarılan torpaqlar ölkənin kənd təsərrüfatına yararlı torpaq sahələrinin üçdə birini (1432.7 min hektar) təşkil etsə də, ölkədə istehsal olunan kənd təsərrüfatı məhsullarının 90-95%-i bu torpaqların payına düşür. Suvarılan torpaqların təxminən üçdə birindən çoxu (565 min hektarı) mexaniki üsulla, 349.4 min hektarı elektrikləşmənin köməyi, 68.2 min hektar dizel-nasos stansiyaları, 147.7 min hektarı isə subartezian quyuları vasitəsi ilə suvarılır.

Azərbaycan Respublikası arid zonada yerləşir, onun su ehtiyatları olduqca məhduddur. Yerüstü su ehtiyatları 32.2 milyard kubmetr təşkil edir və quraqlıq illərdə 22.6 milyard kubmetrə qədər azalır. Yeraltı su ehtiyatları isə 5.2 milyard kubmetrdir. Respublikada orta illik su çatışmazlığı 4.5-5 milyard




**Diaqram 41.** İqtisadiyyata sektorlar üzrə qoyulan birbaşa kapital (milyon manatla)

| Topraq növü | Sahəsi |
|---|---|
| Torpaq sahəsi (1 000 ha) | 8 260 |
| Şumluq torpaq (1 000 ha) | 1 760 |
| Daimi bitkilər (1 000 ha) | 71 |
| Otlaqlar (1 000 ha) | 1 920 |
| Suvarılan torpaqlar | 1 455 |
| Sudan istifadə, xüsusi çəki | |
| Kənd təsərrüfatı | 67.5% |
| Sənaye | 27.7% |
| Ev təsərrüfatı | 4.8% |
| | |

**Cədvəl 13.** Azərbaycanın torpaq ehtiyatları

kubmetr arasında dəyişir. Yerüstü su ehtiyatlarının 70 faizi ölkə hüdudlarından xaricdə formalaşır. Daxili çayların əsas sərfi yaz dövrünə düşdüyündən və əksəriyyətinin axını tənzimlənmədiyindən, sel və daşqın sularından tam istifadə etmək mümkün olmur. Sellər və daşqınlar hər il ölkə iqtisadiyyatına külli miqdarda ziyan vurur. Onların zərərli təsirinə yüzlərlə yaşayış evi, min hektarlarla əkin sahələri, dəmir və avtomobil yolları, elektrik xətləri, qaz kəmərləri, kanallar və kollektorlar, hidrotexniki qurğular, digər mühəndis kommunikasiyaları məruz qalır. Daxili çayların sulu dövrü əsasən yaz və payız mövsümlərinə təsadüf etdiyinə və onların əksərinin axını tənzimlənmədiyinə görə, onlardan səmərəli istifadə etmək mümkün olmur. Hazırda respublikada orta illik su çatışmazlığı 3.7 kub km, quraqlıq illərdə isə 4.75 kub km təşkil edir. Çaylardan ekoloji, energetika və digər məqsədlər üçün məcburi su buraxmalarını nəzərə alsaq, su çatışmazlığının miqdarı təsəvvürəgəlməz qiymətə malik olar.

Ümumiyyətlə, respublikada il ərzində 10-13 kub km su istifadə olunur ki, onun 60-70%-i kənd təsərrüfatının, 20-25%-i sənayenin, qalan hissəsi isə təsərrüfat və içməli su tələbatının ödənilməsinə sərf edilir.

# PROQNOZLAR

# 2010-cu İLİN DÖVLƏT BÜDCƏSİ

## 2010-cu il dövlət büdcəsi gəlirlərinin strukturu və əsas mənbələri

2010-cu il dövlət büdcəsinin gəlirləri ümumi daxili məhsulun 31,5 faizini təşkil etməklə 10015,0 mln. manat, o cümlədən qeyri-neft sektoru üzrə daxilolmalar 3570,0 mln. manat olacağı gözlənilir. Bu 2009-cu ilin təsdiq olunmuş proqnozu ilə müqayisədə 2025,0 mln. manat və ya 16,8 faiz az, gözlənilən daxilolmalarla müqayisədə 314,0 mln. manat və ya 3,2 faiz çoxdur. Qeyd etmək lazımdır ki, 2010-cu ildə dövlət büdcəsi gəlirlərinin ümumi daxili məhsulda xüsusi çəkisi 2009-cu il dövlət büdcəsinin təsdiq olunmuş gəlirlər üzrə göstəricilərinin hesablanması üçün qəbul edilmiş ÜDM-də xüsusi çəkisi ilə müqayisədə 3,9 faiz çoxdur.

Beləliklə də 2010-cu ilin büdcə gəlirlərində Azərbaycan Respublikası Dövlət Neft Fondundan transfertlərin payının 49,07 faiz, Azərbaycan Respublikasının Vergilər Nazirliyi üzrə daxil olmaların 39,7 faiz, Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi üzrə daxil olmaların isə 10,98 faiz olacağı gözlənilir.




**Diaqram 42.** Dövlət büdcəsi

| İllər | 2003 | 2007 | 2008 | 2009 |
|---|---|---|---|---|
| Dövlət büdcəsinə daxilolmalar (milyon manat)<br>Artım, faizlə | 1 220.9<br>34.1 | 6 007.3<br>55 | 10 763.0<br>79.2 | 10 325.9<br>-4.1 |
| Neft gəlirləri (milyon manat)<br>Artım, faizlə | 470<br>35.8 | 3 564<br>58 | 7 299.6<br>104.8 | 6 897<br>-5.5 |
| Qeyri-neft gəlirləri (milyon manat)<br>Artım, faizlə | 751<br>32.9 | 2 443.3<br>51 | 3 463.4<br>41.8 | 3 429<br>-1.0 |
| Dövlət büdcəsinin xərcləri (milyon manat)<br>Artım, faizlə | 1 235<br>32.5 | 6 058.7<br>6.0 | 10 680<br>76.3 | 10 503.9<br>-2.5 |
| o cümlədən investisiya qoyuluşları (milyon manat)<br>Artım, faizlə | 90 | 1 915<br>2.2 | 4 276<br>2.1 | 3 177.0<br>-25.7 |

**Cədvəl 14.** Dövlət büdcəsinin gəlirləri və xərcləri

| Mənbələr üzrə daxilolmalar | Milyon manatla | Faizlə |
|---|---|---|
| Azərbaycan Respublikasının Vergilər Nazirliyi üzrə | 3 980,0 | 49,07 |
| Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi üzrə | 1 100,0 | 10,98 |
| Azərbaycan Respublikası Dövlət Neft Fondundan transfertlər | 4 915,0 | 39,70 |
| Sair daxilolmalar | 20,0 | 0,25 |

**Cədvəl 15.** 2010-cu il dövlət büdcəsi gəlirlərinin əsas mənbələri

2010-cu ildə Vergilər Nazirliyi üzrə dövlət büdcəsinə 3980,0 mln. manat daxilolma nəzərdə tutulur ki, bu da cari il üzrə təsdiq olunmuş proqnozdan 1770,0 mln. manat və ya 30,8 faiz az, gözlənilən daxilolmadan 354,0 mln. manat və ya 9,8 faiz çoxdur. Proqnozlaşdırılan daxilolmaların 38,4 faizi və ya 1530,0 mln. manatı neft sektorunun, 2450,0 mln. manatı isə qeyri-neft sektorunun payına düşür.

Ümumilikdə Vergilər Nazirliyi üzrə daxilolmaların dövlət büdcəsi gəlirlərinin 39,7 faizini təşkil edəcəyi proqnozlaşdırılır ki, bu da 2009-cu ilin gözlənilən daxilolmalarına nisbətən 2,3 faiz çoxdur.

Vergi orqanlarının xətti ilə qeyri-neft sektorundan 2450,0 mln. manat vəsaitin dövlət büdcəsinə təmin edilməsi nəzərdə tutulur ki, bu da 2009-cu ilin təsdiq olunmuş proqnozu ilə müqayisədə 620,0 mln. manat və ya 20,2 faiz az, gözlənilən daxilolmalarla müqayisədə 134,0 mln. manat və ya 5,8 faiz çoxdur. 2010-cu ildə qeyri-neft sektorundan daxilolmaların ümumi daxili məhsulda xüsusi çəkisi 7,7 faiz təşkil edir ki, bu da 2009-cu ilin təsdiq olunmuş proqnozu ilə müqayisədə 0,7 faiz çoxdur.

2010-cu ildə Vergilər Nazirliyi xətti ilə rayon və şəhərlərin yerli gəlirləri üzrə daxilolmalar (Bakı şəhəri istisna olmaqla) 347,1 mln. manat nəzərdə tutulur. Həmin gəlirlər dövlət büdcəsinə Vergilər Nazirliyi xətti ilə nəzərdə tutulan daxilolmaların 8,7 faizini təşkil edir ki, bu da 2009-cu illə müqayisədə 2,5 faiz çoxdur.

Dövlət Gömrük Komitəsinin xətti ilə təmin edilən vəsaitin dövlət büdcəsində xüsusi çəkisi 11,0 faiz, toplanacaq vergi və rüsumlar üzrə daxilolmanın 1100,0 mln. manat olacağı nəzərdə tutulur ki, bu da 2009-cu ilin təsdiq olunmuş proqnozu ilə müqayisədə 200,0 mln. manat və ya 15,4 faiz, gözlənilənə nisbətən isə 1,8 faiz və ya 20,0 mln. manat azdır. 2010-cu il üçün Dövlət Gömrük Komitəsi üzrə mədaxil proqnozunun ümumi daxili məhsulda xüsusi çəkisi 3,4 faiz təşkil edir ki, bu da 2009-cu ilin təsdiq olunmuş proqnozu ilə müqayisədə 0,4 faiz çoxdur.

Makroiqtisadi proqnoz göstəricilərinə əsasən 2010-cu ildə qeyri-neft sektoru və idxalın 6373,1 mln. ABŞ dolları səviyyəsində proqnozlaşdırılması Dövlət Gömrük Komitəsinin xətti ilə təmin ediləcək daxilolmaların 2008-ci il səviyyəsində müəyyən edilməsinə səbəb olmuşdur.

Əmlak Məsələləri Dövlət Komitəsi tərəfindən dövlət mülkiyyətində olan əmlakın icarəyə verilməsindən dövlət büdcəsinə 5,0 mln. manat daxilolmanın təmin ediləcəyi gözlənilir ki, bu da 2009-cu ilin təsdiq olunmuş proqnozuna nisbətən 0,3 mln manat və ya 6,4 faiz çoxdur.

2010-cu il ərzində icmal büdcənin tərkib hissəsi olan Dövlət Neft Fondundan dövlət büdcəsinə birbaşa transfertlər 4915,0 mln. manat proqnozlaşdırılır ki, bu da 2009-cu il səviyyəsindədir.

Sair mənbələrdən dövlət büdcəsinə 15,0 mln. manatın daxil olacağı proqnozlaşdırılır.

Ayrı-ayrı gəlir növləri üzrə daxilolmalar aşağıdakı kimi proqnozlaşdırılır:

Fiziki şəxslərin gəlir vergisi üzrə daxilolmalar ümumi büdcə gəlirlərinin 6,8 faizini təşkil etməklə 680,0 mln. manat nəzərdə tutulur. Ölkənin əsas makroiqtisadi proqnoz göstəricilərinə əsasən 2010-cu ildə orta aylıq əmək haqqının 16,9 faiz artımı, habelə Vergi Məcəlləsinə edilmiş əlavə və dəyişikliklərə əsasən fiziki şəxslərin muzdlu fəaliyyətindən əldə olunan aylıq gəlirin 2000 manatdan çox olan hissəsi üçün tətbiq edilən vergi dərəcəsinin 35 faizdən 30 faizə endirilməsi nəticəsində 23,0 mln. manat ehtimal olunan itki nəzərə alınmaqla bu tədiyyə növü üzrə proqnoz cari ilin gözlənilən icrasına nisbətdə 38,0 mln. manat və ya 5,9 faiz çox nəzərdə tutulur. Bu tədiyyə növü üzrə daxilolmaların ümumi daxili məhsulda xüsusi çəkisi 2,1 faiz təşkil edir ki, bu da 2009-cu ilin təsdiq olunmuş proqnozu ilə eyni səviyyədədir.

Hüquqi şəxslərin mənfəət vergisi üzrə daxilolma proqnozu dövlət büdcəsi gəlirlərinin 10,9 faizini təşkil etməklə 1096,0 mln. manat nəzərdə tutulur ki, bu da cari ilin təsdiq olunmuş proqnozu ilə müqayisədə 1118,0 mln. manat və ya 50,5 faiz azdır. Mənfəət vergisi üzrə daxilolmaların 330,0 mln. manatını Xəzər dənizinin Azərbaycan sektorunda Azəri, Çıraq yataqlarının və Günəşli yatağının dərinlikdə yerləşən

| Vergi və sair daxilolmalar | Məbləğ, min manatla | Xüsusi çəkisi, faizlə |
|---|---|---|
| Fiziki şəxslərin gəlir vergisi | 680 000,0 | 6,78 |
| Hüquqi şəxslərin mənfəət (gəlir) vergisi | 1 096 000,0 | 10,94 |
| Əlavə dəyər vergisi | 1 876 000,0 | 18,73 |
| Aksiz | 552 000,0 | 5,51 |
| Hüquqi şəxslərin əmlak vergisi | 101 000,0 | 1,0 |
| Hüquqi şəxslərin torpaq vergisi | 35 000,0 | 0,34 |
| Yol vergisi | 40 500,0 | 0,40 |
| Mədən vergisi | 130 000,0 | 1,29 |
| Sadələşdirilmiş vergi | 90 000,0 | 0,89 |
| Gömrük rüsumları | 213 500,0 | 2,13 |
| Dövlət rüsumu | 73 000,0 | 0,72 |
| Dövlət mülkiyyətində olan torpaqların icarəyə verilməsindən daxilolmalar | 4 000,0 | 0,03 |
| Dövlət əmlakının, özəlləşdirilən dövlət müəssisə və obyektlərinin altındakı torpaqların icarəyə verilməsindən daxilolmalar | 5 000,0 | 0,04 |
| Azərbaycan Respublikasında istehsal edilən və qiymətləri tənzimlənən məhsulların kontrakt (satış) qiyməti ilə (ixrac xərcləri çıxılmaqla) ölkədaxili topdansatış qiyməti arasındakı fərqdən daxilolmalar | 164 000,0 | 1,63 |
| Xarici dövlətlərin hökumətlərinə verilmiş kreditlər üzrə daxilolmalar | 468,0 | 0,00 |
| Səhmlərində dövlətin payı olan banklardan və digər kredit təşkilatlarından alınan dividendlər | 80,0 | 0,00 |
| Azərbaycan Respublikasının dövlət zəmanəti ilə kredit təşkilatlarından alınmış kreditlər üzrə daxilolmalar | 1 780,0 | 0,01 |
| Qeyri-maliyyə dövlət müəssisələrindən alınan dividendlər | 1 200,0 | 0,01 |
| Dövlət Neft Fondundan daxilolmalar | 4 915 000,0 | 49,07 |
| Büdcədən verilmiş kreditlər üzrə daxilolmalar | 5 850,0 | 0,05 |
| Müvafiq icra hakimiyyəti orqanı ilə əsas və təkrar borcalan hüquqi şəxslər arasında bağlanmış təkrar müqavilələr və kreditlərin istifadəsi ilə əlaqədar vasitəçi (agent) banklarla bağlanan müqavilələr üzrə dövlət büdcəsinə daxilolmalar | 2 900,0 | 0,02 |
| Aksiz markalarının satışından daxilolmalar | 2 722,0 | 0,02 |
| Sair gəlirlər | 25 000,0 | 0,24 |

**Cədvəl 16.** 2010-cu il dövlət büdcəsi gəlirlərinin strukturu

hissəsinin birgə işlənilməsi və neft hasilatının pay bölgüsü haqqında saziş üzrə podratçı tərəflərin mənfəət vergisi məbləği təşkil edir. Qeyd olunmalıdır ki, 2010-cu ilin yanvar ayının 1-dən mənfəət vergisinin 22 faizdən 20 faizə endirilməsi ilə bağlı gözlənilən 90,2 mln. manat itki bu vergi növü üzrə proqnozun hazırlanması zamanı nəzərə alınmışdır.

Əlavə dəyər vergisi üzrə 1876,0 mln manat daxilolma nəzərdə tutulmuşdur ki, bunun da 1078,0 mln. manatı vergi, 798,0 mln. manatı isə gömrük orqanlarının payına düşür. Əlavə dəyər vergisi üzrə daxilolmaların büdcə gəlirlərinə nisbəti 18,7 faiz olacaq. Qeyd etmək lazımdır ki, 2010-cu il üçün əlavə dəyər vergisinin ümumi daxili məhsulda xüsusi çəkisi 5,9 faiz təşkil edəcək ki, bu da 2009-cu ilin təsdiq olunmuş proqnozu ilə müqayisədə 0,6 faiz, o cümlədən Vergilər Nazirliyi üzrə 0,2 faiz, Dövlət Gömrük Komitəsi üzrə isə 0,4 faiz çoxdur.

2010-cu il dövlət büdcəsi gəlirlərinin 5,5 faizini təşkil edəcək aksiz vergisi üzrə 552,0 mln. manat daxilolma proqnozlaşdırılır ki, bunun da 470,0 mln. manatının Vergilər Nazirliyi, 82,0 mln. manatının isə Dövlət Gömrük Komitəsi vasitəsi ilə təmin olunacağı gözlənilir. Bu da 2009-cu ilin təsdiq olunmuş proqnozu ilə müqayisədə 67,0 mln. manat və ya 13,8 faiz çoxdur. 2010-cu il üçün daxilolma proqnozunun ÜDM-də xüsusi çəkisi 1,8 faiz təşkil edir ki, bu da 2009-cu ilin təsdiq olunmuş proqnozu ilə müqayisədə 0,7 faiz, o cümlədən Vergilər Nazirliyi üzrə 0,6 faiz, Dövlət Gömrük Komitəsi üzrə isə 0,1 faiz çoxdur.

Növbəti il üçün mədən vergisi üzrə 130,0 milyon manat daxilolma nəzərdə tutulur. Qeyri-neft sektorundan mədən vergisi üzrə proqnoz cari ilin gözlənilən daxilolmasına nisbətən 33,3 faiz və ya 1,0 mln. manat çox nəzərdə tutulur.

Hüquqi şəxslərin əmlak vergisi üzrə 101,0 mln. manat və ya cari ilin gözlənilən icrasına nisbətən 6,3 faiz artım nəzərdə tutulub. Qeyd edək ki, qeyri-neft sektorundan cari ilin sonuna qədər gözlənilən vergi yığımlarının məbləği ilə müqayisədə bu artım 15,6 faiz çox təşkil edəcək.

2010-cu ildə yol vergisindən vergi orqanlarının xətti ilə 34,0 mln. manat, Dövlət Gömrük Komitəsinin xətti ilə isə 6,5 mln. manat daxilolma nəzərdə tutulub ki, bu da 2009-cu ilin təsdiq olunmuş proqnozu ilə müqayisədə 4,2 mln. manat və ya 11,6 faiz çoxdur. Bu tədiyyə növü cari ilin gözlənilən icrasına nisbətən Vergilər Nazirliyi üzrə 13,0 faiz və ya 3,9 mln. manat, Dövlət Gömrük Komitəsi üzrə 8,3 faiz və ya 0,5 mln manat artım nəzərdə tutulur.

Hüquqi şəxslərin torpaq vergisi üzrə növbəti il üçün də cari ildə gözlənildiyi həcmdə (35 mln. manat) daxilolma proqnozlaşdırılır.

Sadələşdirilmiş vergi növü üzrə 90 mln manat dax-




**Diaqram 43.** 2010-cu il dövlət büdcəsi xərclərinin bölmələr üzrə xüsusi çəkisi

ilolma proqnozlaşdırılır ki, bu da 2009-cu ilin təsdiq olunmuş proqnozuna nisbətən 12 mln. manat və ya 15,4 faiz çoxdur. 2010-cu ilin yanvar ayının 1-dən tətbiqinə başlanılacaq Vergi Məcəlləsinə edilmiş əlavə və dəyişikliklərə müvafiq olaraq hüquqi şəxslərin sadələşdirilmiş vergi üzrə vergi tutulan əməliyyatlarının həcmi 90 min manatdan 150 min manatadək artırılması ilə bağlı gözlənilən əlavə daxilolmalar hesablamalarda nəzərə alınıb.

2010-cu il üçün dövlət rüsumu üzrə 73 mln. manat daxilolma proqnozlaşdırılır ki, bu da cari ilin təsdiq olunmuş proqnozu ilə müqayisədə 13,0 mln. manat və ya 21,7 faiz artım deməkdir.

Sair daxilolmalar üzrə növbəti il 189,0 mln. manat daxilolma gözlənilir ki, bunun da 157 mln. manatı neft sektorunun payına düşür. Neft sektoru çıxılmaqla sair daxilolmalar 2009-cu ilin təsdiq olunmuş proqnozu ilə müqayisədə 12 mln. manat və ya 50,1 faiz çoxdur.

Dövlət mülkiyyətində olan torpaqların icarəyə verilməsindən daxilolmalar üzrə növbəti il üçün cari ildə gözlənilən həcmdə (4 mln. manat) daxilolma proqnozlaşdırılır.

Gömrük rüsumlarından 2010-cu il ərzində dövlət büdcəsinə 213,5 mln. manatın daxil olacağı proqnozlaşdırılır.

2010-cu ildə dövlət büdcəsinin xərcləri dövlətin orta və uzunmüddətli prioritetlərini özündə birləşdirən iqtisadi xəttinin həyata keçirilməsinə, sosial-iqtisadi inkişaf sürətinin qorunub saxlanılmasına, iqtisadiyyatın tənzimlənməsi və stimullaşdırılmasına, ölkəmizin iqtisadi qüdrətinin daha da artırılmasına, milli maraqlarımızın beynəlxalq miqyasda təmin edilməsinə, regionların tarazlı inkişafına, qeyri-neft sektorunun və sahibkarlığın inkişaf etdirilməsinə, istehsal və sosial infrastrukturların müasir tələblər səviyyəsində qurulmasına, xalqın rifah halının yaxşılaşdırılmasına maliyyə təminatı olacaq.




**Diaqram 44.** 2010-cu il dövlət büdcəsi xərclərinin strukturu

2010-cu ildə də dövlət büdcəsi xərclərinin strukturunun və icrası prosesinin təkmilləşdirilməsi, bu sahədə şəffaflığın və ünvanlılığın təmin edilməsi is-

| | Büdcə xərcləri | Min AZN | %-lə |
|---|---|---|---|
| 1 | Dövlət əsaslı vəsait qoyuluşu | 3 549.0 | 31.50 |
| 2 | Müdafiə | 1 205.8 | 10.70 |
| 3 | Təhsil | 1 276.8 | 11.33 |
| 4 | Fondlar, büdcədənkənar vəsaitlər və s. | 977.3 | 8.67 |
| 5 | Sosial müdafiə və sosial təminat | 1 192.3 | 10.58 |
| 6 | Ümumi dövlət xidmətləri | 1 042.3 | 9.25 |
| 7 | Məhkəmə, hüquq-mühafizə və prokurorluq | 707.4 | 6.28 |
| 8 | Səhiyyə | 479.4 | 4.25 |
| 9 | Kənd Təsərrüfatı | 382.7 | 3.39 |
| 10 | Cultural, Arts, IT and Gymnastics | 172.8 | 1.53 |
| 11 | Mənzil-kommunal | 201.2 | 1.78 |
| 12 | Nəqliyyat və rabitə | 77.0 | 0.68 |

**Cədvəl 17.** 2010-cu il dövlət büdcəsi xərclərinin bölmələr üzrə xüsusi çəkisi

tiqamətində işlər davam etdiriləcək.

2010-cu il dövlət büdcəsinin xərcləri ümumi daxili məhsulun 35,4 faizi həcmində və ya 2009-cu ilin gözlənilən icrasına nisbətən 2,8 faiz çox nəzərdə tutulur.

Kəsirin maliyyələşmə mənbələri və Dövlət Neft Fondundan ayrılan 4915,0 mln manat transfert nəzərə alınmaqla, 2010-cu il dövlət büdcəsinin xərcləri 11264,0 mln manat proqnozlaşdırılır ki, bu da 2009-cu ilin təsdiq olunmuş göstəricilərinə nisbətən 1091,0 mln. manat və ya 8,8 faiz az, 2009-cu ilin gözlənilən icrasına nisbətən 1248,0 mln. manat və ya 12,5 faiz çoxdur.2010-cu il dövlət büdcəsinin xərclərinin strukturuna daxil olan cari xərclər 6590,4 mln. manat, əsaslı xərclər 4386,5 mln. manat, kreditlər üzrə borclara, faizlərə xidmətlə bağlı xərclər 287,1 mln. manat təşkil edəcək.

2010-cu il dövlət büdcəsində əsas fondlara əsaslı vəsait qoyuluşu xərcləri üçün dövlət əsaslı vəsait qoyuluşu, əsas vəsaitlərin alınması, əsaslı tikinti, əsaslı təmir və s.) 4386,5 mln. manat və ya xərclərin 21,2 faizi həcmində, təqaüdlər və sosial müavinətlər üçün 1162,2 mln. manat və ya xərclərin 10,3 faizi həcmində, dərman, sarğı ləvazimatlarının və ərzaq məhsullarının alınması üçün 328,5 mln. manat və ya xərclərin 2,9 faizi həcmində, inventar və avadanlıqların alınması üçün 172,4 mln. manat və ya xərclərin 1,5 faizi həcmində, nəqliyyat, kommunal və kommunikasiya xidmətləri haqqının ödənilməsi xərcləri üçün 155,6 mln. manat və ya xərclərin 1,4 faizi həcmində, idarənin saxlanılması və cari təmir xərcləri üçün 178 mln. manat və ya xərclərin 1,6 faizi həcmində, ezamiyyə xərclərinin ödənilməsi üçün 40,1 mln. manat və ya xərclərin 11 faizi həcmində, digər xərclərin ödənilməsi üçün (icarə və muzdlu xidmətlər, öhdəliklər üzrə maliyyə əməliyyatları, ssudalar, faizlər üzrə ödənişlər, üzvlük haqqı üzrə ödənişlər, qrantlar və digər ödənişlər, bank xərcləri) 866,9 mln. manat və ya xərclərin 7,7 faizi həcmində vəsait nəzərdə tutulub.

# 2010-cu ilin inflyasiyası

Iqtisadi Tədqiqatlar Mərkəzi İqtisadi Məsələlər üzrə İsveçrə Dövlət Katibliyi (SECO) tərəfindən maliyyələşdirilən “Alternativ inflyasiya səviyyəsinin hesablanması və modellərin işlənilməsi” layihəsi çərçivəsində apardığı tədqiqat işində müxtəlif metodlardan istifadə etməklə Azərbaycan üçün inflyasiyanı proqnozlaşdırıb. ARIMA, VAR və Fillips əyrisini bu məqsədlə qiymətləndirilib.

Eyni zamanda Mərkəzin ekspertləri tərəfindən 2000-ci ilin yanvar - 2009-cu ilin dekabr ayı üzrə aylıq göstəricilərindən istifadə etməklə laq uzunluğu 5 və 1 olan, həmçinin 0 tərtibdə kointeqrasiya olunmuş İQİ, məzənnə indeksi, sənaye məhsulunun qiymət indeksi və pul kütləsi (M2) VAR üsulu ilə modelləşdirilib. Tədqiqatın nəticəsində 84 parametr qiymətləndirlib. Belə ki, 4 tənlik 5 laq (bir də konstant) nəzərə alınmaqla: 84 (21x4) parametrdən ibarət olub. Tədqiqat göstərib ki. inflyasiya göstəricisi özündən əvvəlki inflyasiya hədlərindən asılıdır. Belə ki, inflyasiya laqları artdıqca bu asılılıq da artır. Məsələn, bir ay əvvəl İQİ-nin 1 faiz artımı indiki İQİ-ni 1.6 faiz sürətləndirir. Manatın nominal məzənnə indeksi İQİ-yə neqativ təsir göstərir. Məzənnənin bir ay əvvəl 1 faiz artımı İQİ-ni 0.66 faiz azaldır. Laq dərinliyi artdıqca İQİ və məzənnə arasında əlaqə də “rəqs” edir. Pul kütləsinin İQİ-yə təsiri fiksə olunmuş məzənnə siyasətinə uyğun olub. M2 pul kütləsinin 1 vahid artımı İQİ-ni 0,003 vahid sürətləndirir. Tədqiqat nəticəsində məlum olub ki, Sənaye məhsulunun istehsalçı qiymət indeksinin də inflyasiya üzərində təsiri aydın görünür. Modelə görə sənaye məhsulunun istehsalçı qiymət indeksinin 1 vahid artımı İQİ-ni 0.03 vahid yüksəldir.

Beləliklə , qiymətləndirmələr göstərir ki, inflyasiya gözləntiləri və keçmiş dövrün inflyasiyası cari inflyasiyanı yaradan əhəmiyyətli faktorlardandır və onların təsirləri təqribən eynidir. Tədqiqat işində aparılan hesablamalr göstərir ki, qeyri-neft məcmu buraxılış kəsrinin inflyasiya yaratmaq kanalı yoxdur. Bu nəticənin bir neçə izahı ola bilər: (i) ÜDM hesablanarkən idxal məhsulları nəzərə alınmadığı halda İQİ hesablanmasında o öz əksini tapır. İdxal məhsullarının istehlak zənbilində payının əhəmiyyətli olduğunu nəzərə alsaq nəticə izah olunandır (ii) digər izah isə institusional, bazar strukturu və inhisarçılıq amilləri ilə bağlıdır.

Tədqiqat nəticəsində məlum olmuşdur ki, Fillips Əyrisindən inflyasiya proqnozlaşdırılmasında geniş istifadə olunmasına baxmayaraq Azərbaycan Fillips əyrisi özünü doğrultmadığından proqnozlaşdırma aləti kimi istifadə edilməmişdir. Odur ki, ekspertlər Azərbaycanda inflyasiyanı ARIMA, şərti VAR və şərtsiz VAR üsulu inflyasiyanı 3 variantda proqnozlaşdırıblar.

2010-cu il üçün inflyasiya proqnozu nəticələr aşağıdakı cədvəllərdə öz əksini tapmışdır.

| | Period (%) | Proqnoz (şərti model %) |
|---|---|---|
| 2010, Yanvar | 1.91 | 1.72 (0.5) |
| 2010, Fevral | 0.74 | 1.06 (1.1) |
| 2010, Mart | 1.11 | 1.19 (1.3) |
| 2010, Aprel | 0.64 | 1.26 (0) |
| 2010, May | 0.07 | 0.5 |
| 2010, İyun | -0.87 | -0.56 |
| 2010, İyul | -0.62 | -0.41 |
| 2010, Avqust | -0.17 | 0.55 |
| 2010, Sentyabr | 0.75 | 0.99 |
| 2010, Oktyabr | 1.46 | 1.18 |
| 2010, Noyabr | 1.46 | 1.25 |
| 2010, Dekabr | 1.42 | 1.29 |

**Cədvəl 18.** 2010-cu il üçün aylar üzrə inflyasiya proqnozu

# «Azərbaycan Respublikasının 2010-cu il dövlət büdcəsi haqqında» Azərbaycan Respublikasının Qanununa dəyişikliklər edilməsi barədə» Azərbaycan Respublikasının Qanun layihəsinə dair

# İZAHAT

***«Azərbaycan Respublikasının 2010-cu il dövlət büdcəsi haqqında Azərbaycan RespublikasınınQanununa dəyişikliklər edilməsi barədə» Azərbaycan Respublikasının Qanun layihəsinə dair İzahat «Büdcə sistemi haqqında» Azərbaycan Respublikası Qanununun 23.7.1.1-ci maddəsinə uyğun olaraq hazırlanmışdır.***

## 2010-cu il dövlət büdcəsinin gəlirləri üzrə əsas istiqamətlər

Yenidən baxılma ilə 2010-cu il dövlət büdcəsi gəlirlərinin 1490,0 mln. manat artırılaraq 11505,0 mln. manata çatdırılması nəzərdə tutulur ki, bu da təsdiq olunmuş proqnoza nisbətən 14,9 faiz çoxdur. Artımdan sonra dövlət büdcəsi gəlirlərinin 3620,0 mln. manatı qeyri-neft sektorunun, 7885,0 mln. manatı isə neft sektorunun payına düşəcəkdir.

2010-cu il dövlət büdcəsi gəlirlərinin 2 istiqamətdə artırılması nəzərdə tutulur:

1) Vergilər Nazirliyinin topladığı gəlirləri 490,0 mln. manat;

2) Dövlət Neft Fondundan dövlət büdcəsinə verilən transfertləri 1,0 mlrd. manat artırmaq.

Artımlardan sonra Vergilər Nazirliyi vasitəsilə dövlət büdcəsinə yığılan gəlirlər 4470,0 mln. manat təşkil etməklə 2010-cu il təsdiq olunmuş büdcəsinə nisbətən 12,3 faiz, 2009-cu ilin faktiki göstəriciləri ilə müqayisədə isə 356,5 mln. manat və ya 8,7 faiz çox olacaqdır.

2010-cu il yenidən baxılmış dövlət büdcəsinin gəlirlərinin artımı xam neftin satış qiymətinin artımı nəticəsində bir sıra vergilər üzrə daxilolmaların, o cümlədən hüquqi şəxslərdən mənfəət (gəlir) vergisinin, əlavə dəyər vergisinin və Azərbaycan Respublikası Dövlət Neft Fondundan dövlət büdcəsinə transfertin məbləğinin artırılması hesabına təmin ediləcəkdir.

Bu hesaba Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti üzrə 320,0 mln. manat mənfəət vergisindən, Azərbaycan Respublikası Dövlət Neft Şirkəti üzrə isə 120,0 mln. manat Azərbaycan Respublikasında istehsal edilən və qiymətləri tənzimlənən məhsulların kontrakt (satış) qiyməti ilə (ixrac xərcləri çıxılmaqla) ölkədaxili topdansatış qiyməti arasındakı fərq üzrə daxilolmalardan artım yaranacaqdır.

Dövlət büdcəsinin gəlirləri üzrə yaranmış əlavə gəlirlərin və Azərbaycan Respublikası Dövlət Neft Fondundan dövlət büdcəsinə ediləcək transfertin dövlət büdcəsinin xərclərinə yönəldilməsi hesabına dövlət büdcəsinə əlavə olaraq 50,0 mln. manat əlavə dəyər vergisi daxil olacaqdır.

Eyni zamanda, bir sıra vergi ödəyicilərinin şəhər və rayon ərazi vergi orqanlarının uçotundan çıxarılaraq mərkəzləşdirilmiş qaydada vergi ödəmələri nəticəsində şəhər və rayonlar üzrə yerli gəlirlərin proqnozlarında dəyişikliklər aparılmaqla, həmin gəlirlərin 30,8 mln. manat azaldılması, müvafiq olaraq dövlət büdcəsinin mərkəzləşdirilmiş gəlirlərinin həmin məbləğə qədər artırılması nəzərdə tutulur.

Ayrı-ayrı gəlir növləti üzrə daxilolmalar aşağıdakı kimi proqnozlaşdırılır:

Hüquqi şəxslərin mənfəət (gəlir) vergisi üzrə daxilolmalar dövlət büdcəsi gəlirlərinin 12,3 faizini təşkil etməklə 1416,0 mln. manat proqnozlaşdırılır ki, bu da cari ilin təsdiq olunmuş proqnozla müqayisədə 320,0 mln. manat və ya 29,2 faiz, 2009-cu ilin faktiki göstəricisi ilə müqayisədə 86,8 mln. manat və ya 6,5 faiz çoxdur.

Vergi orqanlarının xətti ilə toplanan əlavə dəyər vergisi üzrə 1128,0 mln. manat daxilolma nəzərdə tutulmuşdur ki, bu da 2010-cu ilin təsdiq olunmuş proqnozuna nisbətən 50,0 mln. manat və ya 4,6 faiz çoxdur. Büdcə gəlirlərində əlavə dəyər vergisi üzrə daxilolmaların xüsusi çəkisi 9,8 faiz təşkil edir.

Sair daxilolmalar üzrə 309,0 mln. manat proqnozlaşdırılır ki, bunun da 277,0 mln. manatı neft sektorunun payına düşür. Bu daxilolma 2010-cu ilin təsdiq olunmuş proqnozuna nisbətən 120,0 mln. manat və ya 1,6 dəfə çoxdur. Sair daxilolmaların büdcə gəlirlərinə nisbəti 2,7 faizdir.

## 2010-cu il dövlət büdcəsinin xərcləri üzrə əsas istiqamətlər

Yenidən baxılma ilə 2010-cu il dövlət büdcəsi xərclərinin 1011,3 mln. manat artırılaraq 12275,3 mln. manata çatdırılması nəzərdə tutulur ki, bu da 2010-cu il təsdiq olunmuş dövlət büdcəsinin xərclərinə nisbətən 9,0 faiz, 2009-cu ilin faktiki icrasına nisbətən 1706,4 mln. manat və ya 16,1 faiz çox olacaqdır.

Dövlət büdcəsinin cari xərclərinin artımı üçün nəzərdə tutulan 399,3 mln. manat vəsaitin 300,0 mln. manatı və ya 75,1 faizi Kür, Araz və digər çayların daşması nəticəsində ölkə ərazisində baş verən irimiqyaslı təbii fəlakətin, habelə buk imi halların gələcəkdə təkrarlanmasının qarşısının alınması, onun iqtisadiyyatın müxtəlif sahələrinə, əhaliyə vurduğu ziyanın nəticələrinin aradan qaldırılmasına, 99,3 mln. manatı və ya 24,9 faizi əvvəlcədən dövlət büdcəsinin nəzərdə tutulmayan bəzi məsələlərin həlli, o cümlədən əhalinin sağlamlığının yaxşılaşdırılması üçün bir sıra dövlət proqramlarının («Hemofiliya və talassemiya irsi qar xəstəlikləri üzrə Dövlət Proqrammı»nın maliyyə təminatı ilə bağlı xərclərə (2006-2010-cu illər), «Xroniki böyrək çatışmazlığı üzrə Tədbirlər Proqrammı»nın maliyyə təminatı ilə bağlı xərclərə (2006-2010-cu illər) və "Yoluxucu xəstəliklərin immunoprofilaktikasına dair Tədbirlər Proqramı"nın maliyyə təminatı ilə bağlı xərclərə (2006-2010-cu illər), elmin maddi-texniki təminatının gücləndirilməsi, kommunal sistemində tədbirlər üzrə xərclərə, xarici ölkələrdə səfirliklər və digər diplomatik nümayəndəliklər üçün inzibati binaların alınması, xaricdə diasporanın inkişafı, 2010-cu il üçün Azərbaycan Respublikasının elm, mədəniyyət və ədəbiyyat üzrə Dövlət mükafatı almış şəxslərə mükafatın ödənilməsi və digər ödənişlərin tənzimlənməsi xərclərinə yönəldiləcəkdir.

2010-cu il dövlət büdcəsinə yenidən baxılması ilə sosialyönümlü tədbirlərə aid olan elm, təhsil, səhiyyə, mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi xərclərinə əlavə xərclərin 14,5 mln. manatı sərf ediləcəkdir.

Sənaye və tikinti, iqtisadi fəaliyyət, əsas bölmələrə aid edilməyən xidmətlər üzrə xərclərə əlavə xərclərin 970,8 mln. manatının, o cümlədən dövlət əsaslı vəsait qoyuluşu xərclərinə 608,5 mln. manatının yönəldilməsi nəzərdə tutulur.

Artımdan sonra dövlət büdcəsinin əsaslı vəsait qoyuluşu xərcləri 4157,5 mln. manata çatmaqla, onun büdcədə xüsusi çəkisi 2,4 faiz artaraq 33,9 faiz olacaq.

Əsaslı xərclərin artımı üçün nəzərdə tutulan 608,5 mln. manat vəsaitin 400,0 mln. manatı və ya 65,7 faizi ölkəmizin yerləşdiyi bölgələrdə yaranmış geosiyasi vəziyyətə uyğun olaraq, onun müdafiə qabiliyyətinin daha da artırılması və təhlükəsizliyinin təmin edilməsi xərclərinə, 205,8 mln. manatı və ya 33,8 faizi elm, səhiyyə, təhsil və sosial müdafiə sahələrində bir sıra təxirəsalınmaz problemlərin həlli, Bakı şəhərinin elektrik enerji ilə təchizatının etibarlılığının təmin edilməsi, ölkənin nəqliyyat infrastrukturları üzrə müvafiq layihələrin başa çatdırılması xərclərinə yönəldiləcək.

Ümumi dövlət xərclərinə əlavə xərclərin 16,7 mln. manatı ayrılacaq.

Dövlət büdcəsinin yerli gəlir və xərclərini tənzimləmək üçün məkrəzləşdirilmiş xərclərdən ayrılan vəsaitin (dotasiya) məbləği isə 30,8 mln. manat və ya 4,2 faiz artacaq.

2010-cu il dövlət büdcəsinin kəsirinin maliyyələşdirilməsi üçün nəzərdə tutulmuş 1249,0 mln. manat vəsaitin əlavə gəlirlər hesabınm 478,7 mln. manatının azaldılması və dövlət büdcəsinin kəsirinin maliyyələşdirilməsi üçün 770,3 mln. manat məbləğində maliyyələşdirmə mənbəsinin saxlanılması nəzərdə tutulur. Nəticədə dövlət büdcəsinin kəsiri ilin sonuna gözlənilən ümumi daxili məhsulun 2,3 faizini təşkil edəcək.

## 2010-cu il icmal büdcəsinin gəlir və xərclərinin əsas istiqamətləri

Yenidən baxılmadan sonra 2010-cu il icmal büdcənin gəlirlərinin 3193,5 mln manat və ya təsdiq olunmuş büdcəyə nisbətən 26,9 faiz artırılması nəzərdə tutulur. Artımın 2700,0 mln. manatını və ya 84,5 faizini Azərbaycan Respublikası Dövlət Neft Fondunun gəlirləri, 490,0 mln. manatını və ya 15,4 faizini dövlət büdcəsinin gəlirləri, 3,5 mln. manatını və ya 0,1 faizini Naxçıvan Muxtar Respublikası büdcəsinin gəlirləri təşkil edəcəkdir.

İcmal büdcənin xərcləri təsdiq olunmuş büdcəyə nisbətən 13,6 faiz artaraq 14350,6 mln. manat təşkil edəcək.

Yenidən baxılmadan sonra icmal büdcənin profisiti 727,8 mln manata çatacaqdır.

Dövlət Neft Fondunun gəlirləri nəzərə alınmadan icmal büdcənin kəsiri 7935,3 mln. manat olmaqla gözlənilən ümumi daxili məhsulda xüsusi çəkisi 24,0 faiz təşkil edəcəkdir.

Dövlət büdcəsindən Naxçıvan Muxtar Respublikasının büdcəsinə nəzərdə tutulan dotasiyanın 2,7 mln. manat, Naxçıvan Muxtar Respublikasının öz gəlirlərinin isə 3,5 mln. manat artırılması hesabına onun büdcəsinin gəlir və xərcləri 6,2 mln. manat və ya təsdiq olunmuş büdcəyə nisbətən 2,3 faiz artacaqdır.

Dövlət Neft Fondunun 1,0 mlrd. manat əlavə xərcini dövlət büdcəsinə verilən transfert təşkil edəcək.